**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# SKİFLƏR VƏ ONLARIN AZƏRBAYCAN TARİXİNDƏ YERİ

İxtisas: 5503.02 – Vətən tarixi
5505.02 – Arxeologiya

Elm sahəsi: Tarix

İddiaçı: **Zaur Həsən oğlu Həsənov**

tarix elmləri doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2023**

*Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun Azərbaycanın qədim tarixi şöbəsində yerinə yetirilmişdir.*

Elmi konsultant: tarix elmləri doktoru, professor
**Yan Bouzek**

Rəsmi opponentlər: AMEA-nın həqiqi üzvü, tarix elmləri doktoru
**Nailə Məmmədəli qızı Vəlixanlı**

AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor
**Vəli Baxşəli oğlu Baxşəliyev**

tarix elmləri doktoru
**Yelena Yevgenyevna Fialko**

tarix elmləri doktoru, dosent
**Tofiq Hümbət oğlu Nəcəfli**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası AA.Bakıxanov adına Tarix İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: tarix elmləri doktoru, professor
**Kərim Kərəm oğlu Şükürov**

Dissertasiya şurasının elmi katibi: tarix elmləri doktoru, dosent
**İlqar Vahid oğlu Niftəliyev**

Elmi seminarın sədri: tarix elmləri doktoru, professor
**Mais İsrail oğlu Əmrahov**

# I. DİSSERTASİYANIN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** 1) Skif-sak tayfalarının Azərbaycanda mövcudluğunu yazılı mənbələrə və arxeoloji materiallara əsasən izləmək mümkün olsa da, Azərbaycan elmində skiflərin tədqiqi öz layiqli yerini tapmayıb. Bunun birinci səbəbi bizim elmimizdə problemin yetərincə tədqiq olunmamasındadır. İkinci səbəb isə Rusiya, Ukrayna, Qazaxıstan, Macarıstan, Polşa, Almaniya, Çexiya, Moldova və digər ölkələrdə skifşünaslıq sahəsində aparılan müasir tədqiqatlar ilə Azərbaycan elmi arasında mübadilənin olmamasındadır.

2) Skif probleminin həlli tarix, arxeologiya, genetika, sənətşünaslıq, dilçilik, folklor, mifologiya və s. kimi müxtəlif elmlərin cəlb olunmasını tələb edir. Hazırda skifşünaslıqda adları çəkilən elmlərin hamısının köməkliyi ilə tədqiqat işlərinin aparılmasına böyük ehtiyac var.

3) Skiflərin etnik mənşəyi mövzusu Azərbaycanda sovet dövründən tədqiq olunmağa başlamışdır, lakin təəssüflə qeyd etməliyik ki, bu dövrdə təklif olunan e.ə. VIII-IV əsrlərdə Azərbaycan əhalisinin etnik identifikasiyası cəhdləri çox vaxt əsassız xarakter daşımışdır. Bu tədqiqatlarda bir çox hallarda müasir hind-avropaşünalığında ciddi tənqid olunan "dairəvi mühakimə" (circular reasoning) üsuluna əsasən Azərbaycan əhalisinin iran mənşəli olması qəbul olunmuşdur.

4) Azərbaycan arxeologiyasında Azərbaycanın dəfn adətlərinin və Avrasiyanın digər regionlarında onlarla həmdövr olan sırf skif komplekslərinin müqayisəsi nəticəsində əsl skif komplekslərinin aşkar olunmasında sistemli cəhdlər olmamışdır. Skiflərin Cənubi Qafqazda izlərini öyrənən tədqiqatçıların böyük qismi yaranmış ənənəyə əsasən bir qayda olaraq, skif abidələrinin aşkar olunmasında "skif triadası" (üçlüyü) elementlərinin varlığı ilə kifayətləniblər. Bu da onu göstərir ki, Azərbaycanda skif abidələri aşkar olunarkən əsas diqqəti skif tipli tapıntılara yox, daha çox dəfn adətinə və digər göstəricilərə yönəltmək lazımdır. Hazırda bu prinsipə əsaslanan tədqiqatlara böyük ehtiyac var.

5) Həm sovet dövrünün bir sıra tədqiqatlarında, həm də son illərdə aparılan tədqiqatlarda Mingəçevir kurqanlarının və Xocalıdakı böyük torpaq kurqanlarının qədimləşdirilməsi qeyd olunur. Halbuki bu kurqanlarda Şimali Qara dəniz və Cənubi Aralın e.ə. VIII-VII əsrlərə aid kurqanlarında aşkar olunan materialların və dəfn adətinin paralelləri izlənilir. Belə olan halda bu kurqanları yenidən tədqiq etmək zəruriyyəti yaranır.

6) Bu günə qədər Azərbaycandan aşkar olunmuş bütün skif tipli qəbir abidələri və həmin abidələrdən əldə edilən materiallar sistemləşdirilməmişdir. Eyni zamanda bu materialların yayılma arealını göstərən xəritələr də yoxdur. Yeni materialların aşkar olunması bu zərurəti daha da aktuallaşdırır.

7) Azərbaycandan və Avrasiya çölünün digər bölgələrindən aşkar olunmuş skif tipli tapıntıların müqayisəli təhlili aparılmamışdır. Azərbaycanda aşkar olunan skif komplekslərinin və tapıntılarının dövrləşməsi həyata keçirilməmişdir. Təqdim olunan tədqiqat işi skiflərin regionda yayılma arealını və dövrünü aydınlaşdırmağa imkan verəcək.

8) Avrasiyanın skif qəbir abidələrindən aşkar olunmuş 96 insan qalığının üzərində dünyanın aparıcı genetiklərinin bir qrupu tərəfindən yaxın zamanlarda aparılmış DNT analizi göstərdi ki, skiflərin iki genetik qrupu olmuşdur – şərq və qərb. Qərb skif qrupundan və onların sələfləri olan srubnaya tayfalarından birbaşa törəyənlərin böyük faiz nisbəti (95%-dən çox) azərbaycanlılara məxsusdur.[1] Bu göstəricilər sübut edir ki, Azərbaycanın etnik tərkibinin formalaşmasında skiflər və srubnaya tayfaları əsas rol oynamışdır. Beləliklə, bütün bu sadalananlar sübut edir ki, skiflərin tədqiqi Azərbaycan elmində əsas yer tutmalıdır.

Azərbaycanda skif probleminin tədqiqatçıları sırasında Y.B.Yusifovun, Q.İ.İonenin, C.Ə.Xəlilovun, İ.Q.Əliyevin, Y.M.Mahmudovun, Q.A.Qeybullayevin, S.M.Qaşqayın və bir çoxlarının adlarını

---

[1] Unterländer Martina. Ancestry and demography and descendants of Iron Age nomads of the Eurasian Steppe. / Martina Unterländer, Friso Palstra, Iosif Lazaridis [et al.] // Nature Communications. – 03/03/2017. Online, p.8, supplementary fig. 10.

çəkmək olar. Dissertasiya işinin müəllifi tərəfindən çar skiflərinin etnik-dil mənsubiyyəti, skiflərin sosial və mədəni dəyərləri, kimmerlərin etnik-dil mənsubiyyəti, eləcə də Qamir ölkəsinin harada yerləşməsinin müəyyənləşdirilməsi, həmçinin İssık yazısının oxunması mövzuları araşdırılmışdır.

Rusiya, Ukrayna, Qazaxıstanda isə skif-sak tayfaları problemi daha fəal şəkildə öyrənilib və öyrənilməkdədir. Skif-sak arxeologiyasının problemləri B.N.Qrakovun, M.İ.Artamonovun, A.İ.Terenojkinin, V.A.İlyinskayanın, A.A.İyessenin, M.P.Qryaznovun, A.İ.Melyukovanın, K.A.Akişevin, O.A.Vişnevskayanın, Y.İ.Krupnovun, B.N.Mozolevskinin, L.K.Qalaninanın, Y.V.Çernenkonun, V.S. Olxovskinin, M.N.Poqrebovanın, İ.N.Medvedskayanın, Z.S.Samaşevın, V.Y.Murzinin, S.A.Skorının, N.A.Qavrilyukun, V.R.Erlixin, S.V.Maxortıxın, L.T.Yablonskinin, A.D.Tahirovun, A.Y.Alekseyevin, Y.Y.Fialkonun, Y.V.Boltrikin, K.V.Çuqunovun, N.S.Bandrivskinin və bir çoxlarının əsərlərində tədqiq olunmuşdur. Skif-sak arxeologiyasında semantika mövzusu D.S.Rayevskinin, S.S.Bessonovanın və A.K.Akişevin, sosial tarix mövzusu isə A.M.Xazanovun əsərlərində araşdırılır. Yazılı mənbələr əsasında skif tarixinin tədqiqi ilə İ.M.Dyakonov, L.A.Yelnitskiy, Y.A.Qrantovskiy, A.İ.İvançik məşğul olmuşlar. Skif dilçilik problemləri Vs.Millerin, V.İ.Abayevin, E.A.Qrantovskinin, S.R.Toxtasyevin və başqalarının əsərlərində təhlil olunur. Skif mövzusu həmçinin britaniyalı tədqiqatçı E.Q.Mins, polyak tədqiqatçıları – T.Sulimirski və Y.Xoroxovski, çexiyalı tədqiqatçı – Y.Bouzek, macarıstanlı – Y.Harmatta, T.Kementsei, K.Bakay, almaniyalı – Q.Kossak, R.Rolle, Q.Partsinger, A.Naqler, Q.Menert və başqaları tərəfindən öyrənilmişdir.

Dissertasiya işində istifadə olunmuş materialları bir neçə qrupa bölmək olar. Birinci qrupa tədqiqatın mövzusu və ya dövrü ilə bağlı olan yazılı mənbələr daxildir. Bunlar aşağıdakılardır: 1) qədim yunan və latın mənbələri – Herodot, Siciliyalı Diodorun təfsirində Ktesiy, Strabon, Siciliyalı Diodor, Yustinin təfsirində Pompey Troq, Plini, Arrian və Valeri Flak; 2) assuriya, babil və yeni babil mənbələri – S.C.Qadd, A.Starr, İ.M.Dyakonov, M.A.Dandamayev, A.İ.İvançik və başqaları tərəfindən nəşr olunmuşlar; 3) qədim fars mənbələri –

R.Q.Kent, L.U.Kinq, Y.Harmatta və başqaları tərəfindən nəşr olunmuşlar; 4) Xan sülaləsinin dövrünə aid çin mənbələri – müəllifi Sıma Tsyan olan "Şi Tzi", eləcə də Ban Qu və onun qızı tərəfindən tərtib olunan "Xan Şu". Dissertasiyanın V fəslində qədim türk mənbələrindən istifadə olunmuşdur – Mahmud Qaşqarinin və Yusuf Balasaqunlunun əsərləri, S.Y.Malovun "Qədim türk yazılı abidələri...", D.D.Vasilyevin "Cənubi Sibirin türk run yazıları korpusu", "Dədə Qorqud" dastanı və s.

İkinci qrupa Rusiya, Ukrayna, Qazaxıstan, Almaniya, Macarıstan, Polşa, Çexiya, Amerika, Gürcüstan və Azərbaycan arxeoloqlarının skif arxeologiyasının problemlərinə və onun metodoloji məsələlərinə həsr olunmuş çoxsaylı tədqiqat işləri daxildir. Həmçinin, bu qrupa AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun elmi arxivində saxlanılan Şəkidə, Gədəbəydə, Mingəçevirdə, Abşeronda və Lənkəranda aparılan qazıntıların hesabatları, eləcə də Milli Azərbaycan Tarixi Muzeyinin arxeoloji fondunda qorunan Mingəçevir materialları aiddir.

Üçüncü qrupa skiflərdən bəhs edən yazılı mənbələri təfsir edən tədqiqat işləri daxildir. Bunların sırasında S.C.Qaddın, D.C.Uayzmanın, V.A.Belyavskinin, İ.M.Dyakonovun, A.M.Hazanovun, Y.Harmattanın, J.Dyumezelin, V.İ.Abayevin, C.Baltserin, Y.A.Qrantovskinin, M.A.Dandamayevin, V.B.Vinoqradovun, Y.B.Yusifovun, S.Zavadskinin, D.S.Rayevskinin, İ.N.Medvedskayanın, A.İ.İvançikin, A.Y.Alekseyevin, V.Parkerin və bir çoxlarının əsərlərinin adlarını çəkmək olar.

Dördüncü qrupa türk xalqlarının qədim dövr tarixindən bəhs edən orta əsr yazılı mənbələri daxildir. Bunların arasında Rəşid-əd-Dinin "Oğuznamə" və Əbü-l-Qazinin "Şəcərəyi türk" (A.N. Kononov tərəfindən dərc olunmuşdur) əsərlərinin adlarını qeyd etmək lazımdır.

Beşinci qrupa türk dilləri lüğətləri daxildir. Onların arasında Mahmud Qaşqarlının "Divani-lüğət–it-Türk", V.V.Radlovun "Опыт словаря тюркских наречий", "Qədim türk lüğəti", C.Klosonun "An etymological dictionary of pre-thirteenth-century Turkish", Y.V.Se-

vortyanın "Türk dillərinin etimoloji lüğəti" və M.R.Fedotovun "Çuvaş dilinin etimoloji lüğəti" əsərlərini göstərə bilərik.

Altıncı qrupa ural-altay xalqlarının etnoqrafik materialları, həmçinin şamanizm və onun metodoloji məsələlərinə, mifologiyasına, dastan yaradıcılığına həsr olunmuş tədqiqat işləri aiddir. Onların arasında M.Eliadenin, N.A.Alekseyevin, V.Y.Butanayevin, E.L.Lvovanın, M.Hoppalın, A.Hultkrantsın, U.Yohansenin, M.Mandelştamın-Baltserin, A.M.Saqalayevin və başqalarının əsərlərini qeyd edə bilərik. Dissertasiya işində əsasən azərbaycan, ingilis, rus və alman dillərində dərc olunmuş materiallar istifadə edilmişdir. Bundan başqa, türk, ukrayna, macar, polyak və fransız dillərində olan materiallar da tədqiqata cəlb olunmuşdur.

Tədqiqatın xronoloji çərçivəsi e.ə. VIII-VII – e.ə. IV-III əsrləri əhatə edir. Birinci qeyd edilən tarixlər, yəni e.ə. VIII-VII əsrlər Xocalıdakı böyük torpaq kurqanlarının, həmçinin Şəkidəki Yoncalı və Təpəbaşı nekropollarındakı tapıntıları ilə müəyyən olunmuşdur. İkinci qeyd edilən tarixlər isə, yəni IV-III əsrlər Mingəçevirdəki uzadılmış vəziyyətdə dəfn adəti ilə müşahidə olunan ən gec torpaq qəbirlərinin dövrü ilə üst-üstə düşür.

**Tədqiqatın obyekt və predmeti.** Tədqiqatın obyekti skiflər və onların Azərbaycan tarixindəki yeridir.

Tədqiqatın predmeti isə skiflər haqqında yazılı mənbələr, Azərbaycan ərazisində onlara aid olan arxeoloji abidələr, skiflərin dəfn adətləri, skif tipli arxeoloji materiallar, skiflərin dil və din problemləri, onların dövlət qurumlarının lokallaşması və dövrləşməsi məsələləridir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi skifşünaslığın iki mühüm məsələsinin həllindən ibarətdir: 1) yazılı mənbələrə və arxeoloji materiallara əsasən Qafqaz silsiləsindən cənubda yerləşən skif dövlət qurumlarının sərhədlərini və bu sərhədlərin müxtəlif dövrlərdə hansı şəkildə dəyişməsini müəyyən etmək; 2) skiflərin etnik mənsubiyyəti problemini araşdırmaq. Bu məqsədə nail olmaq üçün bir sıra məsələləri həll etmək lazımdır:

- Skiflərin Qafqaz silsiləsindən cənubda olmalarını təsdiqləyən və təsvir edən bütün yazılı mənbələri təhlil etmək və sistemləşdirmək;

- Azərbaycan ərazisində skif triadasına aid elementlər aşkarlanan bütün qəbir abidələrini tədqiq etmək və sistemləşdirmək;
- Azərbaycan ərazisində aşkar olunan bütün skif tipli materialları sistemləşdirmək və onların təsnifatını vermək;
- Avrasiyanın skif qəbir abidələrində müşahidə olunan dəfn adətlərinin və ya paleoantropoloji materialların Azərbaycan ərazisindəki analogiyalarını təhlil etmək;
- Yuxarıda göstərilən üç bəndin nəticələrinə əsasən əldə olunan bütün materialları və qəbir abidələrini sistemləşdirmək;
- Skiflərin Şimali və Cənubi Qafqazın yaşayış yerlərində olmaları problemini araşdırmaq;
- Yaşayış yerlərinin və buradan aşkarlanan materialların öyrənilməsi probleminin kontekstində skif-sakların Mərkəzi Asiyadan Qafqaza, eləcə də Macar düzünə miqrasiya yollarını və dövrünü müəyyən etmək;
- Skif dünyasının etnik tərkibi və multikultural problemini araşdırmaq;
- Yazılı mənbələr əsasında Azərbaycanda qeydə alınan iki skif-sak tayfalarının – çar skiflərinin və elmdə saklar-tiqraxaudalar kimi tanınan saklar-ortokoribantilərin etnik və dil mənsubiyyətləri problemini araşdırmaq;
- Daha sonrakı xalqların mədəni irsində skif əsatir və əfsanələrinin izlərinin mövcudluğunu dəqiqləşdirmək;
- Yazılı və arxeoloji mənbələrin, eləcə də müasir xalqların etnoqrafik materiallarının müqayisəli şəkildə tədqiqinə əsasən skiflərin dünyagörüşünün etno-mədəni mənşəyi problemini araşdırmaq;
- Şimali və Cənubi Qafqazda skif dövlət qurumlarının sərhədləri haqqında tədqiqatçıların fikirlərini təhlil etmək;
- Azərbaycandan aşkar olunmuş skif tipli materialların Avrasiyanın digər bölgələrindən aşkar olunmuş arxeoloji artefaktlar ilə müqayisəli təhlilinə əsasən onların dövrləşməsini müəyyən etmək;
- Skif dövlət qurumlarının sərhədlərini müəyyən etmək məqsədi ilə skiflərin genetikası (DNT) sahəsində aparılan son tədqiqatları təhlil etmək.

**Tədqiqatın metodları**

*Tədqiqatın əsas metodoloji prinsipləri.* Dissertasiya işində müəllifin bundan əvvəlki əsərlərində istifadə etdiyi metodoloji prinsiplər tətbiq olunmuşdur.[2] Müəllif tarix, arxeologiya, etnoqrafiya, mifologiya, dastanşünaslıq, dilçilik və s. kimi çoxşaxəli elm sahələrində universal tədqiqat metodunun olmamasını nəzərə alaraq bütün faktorların bir-birilə bağlı olduğu və bir-birlərinin həllində iştirak etdiyi bütöv metodlar sistemi işləmişdir. Bu sistemlər metodu qarşılıqlı sübutlar zənciri yaradır və nəticələri yoxlamaq imkanı verir. Dissertasiyanın tədqiqat metoduna aşağıdakılar daxildir:

1) *Yazılı mənbələrin tədqiqat metodu*; 2) *Arxeoloji materialların tədqiqat metodu*; 3) *Əsatir və əfsanələrin struktur təhlili metodu*; 4) *Dünya görüşünün (dini sistem) müəyyən edilməsi metodu*; 5) *Linqvistik materialların tədqiqi metodu.*

**Müdafiəyə çıxarılan əsas müddəalar**

1) Bəzi tədqiqatçıların Herodotun əsərində assuriyalılardan Nineviyanın midiyalılar tərəfindən (e.ə. 612-ci il) alınması haqqında məlumatın olması fikri yanlışdır. Herodota əsasən, midiyalılar skifləri içirdib öldürdükdən sonra Nineviyanı istila edə bilmişdilər.[3] Bu hadisə tədqiqatçılar tərəfindən yekdilliklə e.ə. VI əsrin əvvələrinə aid edilir. Assuriyanın paytaxtı Nineviyanın işğalı isə e.ə. 612-ci ilə təsadüf edir.

2) Mücəbildən olan "Nabonidin stellasında" Nineviyanı işğal edən (e.ə. 612-ci il) Umman-manda çarının bütöv adı çəkilir. Onun adı İriba-Tukdedir.[4] Müvafiq olaraq Nineviyanın Kiaksar tərəfindən işğal olunması fikri yanlışdır.

---

[2] Гасанов, Заур. Царские скифы / Заур Гасанов. – New York: Liberty Publishing, – 2002, – 486 с.; Həsənov, Zaur. Çar skiflər / Zaur Həsənov. – Bakı, – 2005. – 480 s.; Гасанов, З. Г. Киммерийцы и их место в истории Азербайджана: / автореферат диссертации на соискание ученой степени кандидата исторических наук) / – Баку, 2008. – 48 с.; Hasanov, Zaur. A Method for Determining the Practice of Shamanism in Archeological Cultures. // – Routledge, Taylor & Francis: Anthropology & Archeology of Eurasia, – 2016. 55: nos, 3-4, – pp. 188-231.

[3] Геродот. История. Пер. Стратановского Г.А. / Геродот. – Ленинград: Наука, – 1972. – I, 106.

[4] Петрово-Соловово, М. М. Краткий очерк истории отношений между Ассиро-Вавилонией и евреями / М. М. Петрово-Соловово. – Санкт-Петербург: тип. Мещерского, – 1895. – с.95-97.; Scheil, V. Une nouvelle

3) E.ə. 612-ci ildə Nineviyanın işğalı zamanı midiyalılar skiflərin vassalı olmuş və onların əmri ilə bu işğalda iştirak etmişdilər. Təqribən e.ə. 594-cü ildə vəziyyət dəyişir. Midiyalılar hakim skifləri içirdib qətl edirlər və bundan sonra üsyançı skiflər midiyalılardan asılı vəziyyətə düşürlər.

4) Skif qəbir abidələrinin yalnız "skif triadası"na əsasən təyin edilməsi düzgün deyil. Skif tipli materiallarla yanaşı dəfn adətlərinin etnomədəni əlamətləri də nəzərə alınmalıdır. Azərbaycan ərazisindəki skif tipli materiallar tapılmış bir çox qəbir abidələrində skif aləmində birbaşa paralelləri olan məmulatlar aşkarlanmış və adətlərin izlərinə rast gəlinmişdir.

5) Mingəçevirin torpaq qəbirləri (100 və 122 №-li) əsasında skif tipli bir ox ucluğu növünün digər növü ilə əvəz olunması izlənilir. Bu ox ucluqlarının formalarının dəyişməsindən xəbər verir. Onlardan fərqli olaraq skif tipli silahları mənimsəyən xalqlarda isə bu təkmilləşmə müşahidə olunmur.

6) Serjen-Yurtda, Dərbənddə və Abşeronda aşkar olunan ikiqanadlı ən qədim skif tipli ox ucluqları Herodotun skiflərin Dərbənd keçidindən istifadə edərək Cənubi Qafqaza yürüş etmələri fikrini sübut etməyə imkan verir.

7) Çeçen-İnquşetiya, Azərbaycan və Gürcüstan ərazisində pintaderlər aşkar olunmuş bir sıra yaşayış yerlərində skif tipli ən qədim borulu ox ucluqları tapılmış, dağıntı və yanğın izlərinə rast gəlinmişdir. Kaxetiyada Kiskaraant-Qora və Çeçen-İnquşetiyada Serjen-Yurt yaşayış yerlərində belə ox ucluqları yanmış təbəqədən aşkar olunmuşdur. Kiskaraant-Qorada yanmış təbəqənin radiokarbon analizi e.ə. VIII əsrin sonu – e.ə. VII əsrin əvvəllərini göstərdi.[5] Bu faktlar yazılı mənbələrdə skiflərin Cənubi Qafqaza şimaldan cənuba doğru yürüş etmələri barədə məlumatların doğruluğunu sübut edir.

---

inscription de Nabonide // – Paris: Comptes rendus des séances de l'Académie des Inscriptions et Belles-Lettres, – 1895, de Mai-Juin, – p. 225.

[5] Fürtwängler, A. E. Knauß, F. Motzenbäcker I. Archäologische Expedition in Kachetien 1997. Ausgrabungen in Siraki. 4. Vorbericht. // Eurasia Antiqua, – 1998. 4, – S.352 f.

8) Karpat-Pont bölgəsində pintaderlərin sonradan meydana gəlməsi skif-sigin tayfalarının buraya miqrasiyası ilə əlaqələndirilir.[6] Herodotun məlumatına əsasən onlar midiyalılar kimi geyinir və özlərini midiyalıların törəmələri hesab edirlər.[7]

9) Pintaderlərin semantikasının tədqiqi göstərdi ki, onların üzərindəki həndəsi naxışlar Yaxın Şərqdə yaranmış və skif incəsənətində geniş yayılmış Qanadlı Səma İlahəsi ("heyvanlar sahibəsi"nin) obrazı ilə semantik bağlıdır. Pintaderlər cənubdan şimala, yəni, Şimali Qafqaza və oradan da Mərkəzi Avropaya onlar Azərbaycandan yayılmışdır.

10) Skifləri bütövlüklə iranlı və ya bütövlüklə türk hesab edən tədqiqatçıların fikri yanlışdır və qədim yunan yazılı mənbələrindəki məlumatlara ziddir. Belə ki, bu mənbələrdə skif cəmiyyətinin polietnik tərkibli olduğu haqda məlumatlar var.

11) Dünyanın aparıcı genetikləri və arxeoloqları qrupu [571, p.8, supplementary fig. 10] tərəfindən aparılan son tədqiqatlar skif imperiyasının həqiqətən polietnik tərkibli olması fikrini, eləcə də onların bir hissəsinin türk mənşəli olduğunu sübut edir.

12) Yanlış tədqiqat metodu seçmiş iranşünaslar "irandilli" deyə biləcək konkret skif tayfalarını təyin edə bilməyiblər. Çünki onlar yanlış olaraq müxtəlif dövrlərdə adları çəkilmiş etnosları qarışdırmışdılar.

13) İki skif tayfası – çar skiflər və sak-tiqraxaudalar (sak-ortokoribantlarla eyniləşdirilir) türk mənşəlidirlər. Hər iki tayfa yazılı mənbələrə əsasən Azərbaycan ərazisində qeydə alınmışdılar.

14) Çar skiflərinin etnik mənsubiyyəti Herodotun əsərində qeyd olunan skif mifoloji terminlərinin etimologiyası, eləcə də onların etnonimlərində cəm halda suffikslərin tədqiqi əsasında təyin olunur. Assur-babil yazılı mənbələrində qeyd olunan skif hökmdar adlarının

[6] Хохоровский, Я. Кавказ и Карпатская котловина в раннем железном веке (проблема происхождения сигиннов) // "Azərbaycan arxeologiya və etnoqrafiya elmləri müstəqillik illərində". Beynəlxalq konfrans materialları, – Bakı: AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu, 2013. – с. 144.

[7] Геродот... V, 9.

türk dillərinə uyğun etimologiyası araşdırılanda bir halda vəzifəli şəxsin titulunu bildirir – İşpakay; digər hallarda isə hökmdar və onun varisinin titullarını bildirir – Bartatua, Madiy.

15) Saka tiqraxaudaların etnik mənşəyi İssık yazısı əsasında təyin olunur. Əvvəlki tədqiqatçıların fərziyələrindən fərqli olaraq İssık yazısı tarixi, bədii-epik və linqvistik faktlarla yoxlanır. [144, c.34-59].

16) Herodotun "Tarix" əsərində skiflər Σκύθης — S-kuth-es (tək halda) və ya Σκύθαι — S-kuth-ai (cəm halda) adları ilə hallanırlar. Sözün kökü *Kuth*-dur [см.: 153; 160, c.122-130; 57]. Sözlərin əvvəlindəki aş, iş (aşquz, işquz) coğrafi məna kəsb edir.

17) Yazılı mənbələrin, arxeoloji materialların və Sibir xalqlarının etnoqrafiyasının müqayisəli tədqiqi göstərir ki, kimmerlərin və skiflərin dünyagörüşü və şamanist təcrübələri sibir şamanlarının icra etdikləri ilə eyniyyət təşkil edir.

18) Cənubi Qafqaz ərazisində skif arxaik abidələrinin yayılması göstərir ki, erkən skif dövrünün başlanğıcında Cənubi Qafqazın, demək olar ki bütün ərazisi Aşquz ölkəsinə daxil idi. E. ə. VII əsrin sonlarına yaxın ölkənin sərhədləri Karkemışa (Antakyaya) qədər uzanır.

19) Azərbaycanda skif tipli dəfn kompleksləri ilə bağlı iki xronoloji dövr müəyyən etmək mümkündür. Birinci xronoloji dövr e.ə. VI-II əsrin sonunda (ikinci yarısında) başlayır və e.ə. VI əsrin birinci yarısında bitir. İkinci xronoloji dövr e.ə. VI əsrin ikinci və ya üçüncü rübündə başlayır. Bu dövr çar skif hökmdarlarının Cənubi Qafqaz və Yaxın Şərq ərazisini tərk etmələrinə təsadüf edir və e.ə. IV-III əsrlərə qədər davam edir.

**Tədqiqatın elmi yeniliyi.** Təqdim olunan elmi iş Azərbaycanda tarix, arxeologiya, dilçilik, mifologiya, folklor kimi elmləri cəlb etməklə skif probleminin tədqiqinə həsr olunmuş ilk dissertasiyadır. İlk dəfə olaraq dissertasiya şəklində yazılı mənbələrə əsasən Azərbaycan ərazisində olmuş çar skiflərinin və saklar-otrokoribantilərin (tiqraxauda) etnik və dil mənşəyi problemi həll olunur. Yazılı mənbələrin və arxeoloji materialların müqayisəsi əsasında skiflərin Qafqazdan cənubda dövlət qurumlarının sərhədləri müəyyən olunur. İlk dəfə olaraq saklar-tiqraxaudalar tərəfindən yaradılmış İssık yazısının

tarixi, ədəbi və linqivistik məlumatlarla yoxlanılmış tərcüməsi təqdim olunur.

Dissertasiya işində ilk dəfə olaraq Azərbaycan Respublikası ərazisindən aşkar olunmuş bütün məlum olan skif tipli arxeoloji materiallar təqdim olunur. Bütövlükdə buradan skif tipli tapıntıları ehtiva edən aşağıdakı sayda komplekslər aşkar olunmuşdur: 1) Mingəçevir, Xocalı və Ağcəbədidə 9 kurqan; 2) Abşeronda, Daşkəsən və Gədəbəydə 5 daş qutu; 3) Belə qərara gəlinmişdir ki, Mingəçevirdə içərisində uzadılmış skeletlər dəfn olunan və skiflərə aid edilən torpaq qəbirlərdə qəbul olunmuş fikrə zidd olaraq 24 deyil, 39 və daha çox dəfn icra olunmuşdur; 4) 2 torpaq qəbir Samux və Tovuzda aşkar olunmuşdur; 5) Qazaxda Sarıtəpə yaşayış yerində 2 sallama torpaq qəbir; 6) Şəmkirdəki Şamxor nekropolunda 44-dən çox torpaq qəbir qazılmışdır, onların da bir çoxunda skif dəfn adəti müşahidə olunur və skif tipli avadanlıq aşkar olunmuşdur; 7) skif tipli avadanlığa və Cənubi Aralın skif-sak kəllələrinə bənzəyən paleoantropoloji materiallara malik daha 3 torpaq qəbir Şəkinin Təpəbaşı və Yoncalı nekropollarında aşkar olunmuşdur; 8) Lerikin Buzeyir nekropolunda skif tipli oxu sancılmış insan kəlləsi tapılmışdır; 9) Şəmkirdə gil mədəni yaxınlığında yerləşən təpədəki qarət olunmuş nekropolun torpaq qəbirlərindən arxaik skif oxları aşkar olunmuşdur; 10) Şəmkirin Keçili kəndindən, Qazaxın Sarıtəpə yaşayış yerindəki sallama dəfinədən, Babadərviş yaşayış yerindən və Çaylı kəndindən; Gəncə ətrafından; Qarabağda Xankəndi və Ağdərədən, Füzulidə Zobucuq və Alıxanlı kəndlərindən, Naxçıvanda Şahtaxtı və Təzəkənd kəndləri arasından, Lənkəranın Divəlona adlı yerindən, həmçinin Uzuntəpə və Bəlləbur kəndlərindən, eləcə də Cəlilabad şəhərinin kənarında yerləşən Mişarçay təpəsindən təsadüfən skif tipli əşyalar tapılmışdır.

Tədqiq olunan dövrdə Dneprovsk sağ-sahil meşə-çölünün və Cənubi Aralın dəfn adətlərinə xas olan əlamətlərə əsaslanaraq[8], analoji əlamətlərə və skif tipli avadanlığa malik adları yuxarıda qeyd olunan

---

[8] Скорый, С. А. Скифы в Днепровской Правобережной лесостепи / С. А. Скорый. – Киев: б.и, – 2003. – с.45-53; Яблонский, Л. Т. Саки Южного Приаралья / Л. Т. Яблонский. – Москва: ИА РАН, – 1996. – с. 18-26; Таиров, А. Д. Кочевники Урало-Казахстанских степей в VII-VI вв. до н.э. / А. Д. Таиров.– Челябинск: Изд-во ЮУрГУ, – 2007. – с. 16.

Azərbaycanın bəzi qəbir abidələri xüsusilə seçilmişdir. Onlar bilavasitə skif və saklarla eyniləşdirilmişdir. Dissertasiyada Azərbaycanın skif komplekslərinin dövrləşməsi təklif olunur.

Şimali və Cənubi Qafqazın gil pintaderlər tapılmış yaşayış yerləri və onların skiflər tərəfindən dağıdılmasını göstərən izlər araşdırılır. Kiskaraant-Qora yaşayış yerinin (e.ə. VIII əsrin sonu – VII əsrin əvvəlləri)[9] nümunəsinə əsasən pintaderlər aşkarlanmış yaşayış yerlərinin radiokarbon analizinə görə məhv olma dövrü göstərilir. Azərbaycanın yaşayış yerlərindən və Macarıstanın skif qəbir abidələrindən aşkar olunmuş gil pintaderlərin semantikası üzə çıxır. Məlum olmuşdur ki, Böyük Macar düzündə pintaderlər Azərbaycanın yaşayış yerlərindən onların izləri silinəndən dərhal sonra meydana çıxır.

AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun elmi arxivində Şəmkirdən tapılmış skif ox ucluqları ilə birgə aşkarlanan materiallar saxlanılır ki, bunlar da Bolqarıstanın Yencə kəndi yaxınlığında yerləşən arxaik skif kompleksindən tapılmış nümunələri təkrarlayır. Mingəçevir materialları arasında üzərində skif ilahəsi "heyvanlar sahibəsi"nin marallarla təsviri olan daş ştamp tapılmışdır.

Mingəçevir arxivinin və Milli Azərbaycan Tarixi Muzeyinin arxeoloji fondlarında saxlanılan və daha əvvəl dərc olunmamış erkən skif tipli at yüyəninin qarmaqvari muncuqları müəllif tərəfindən müəyyən olunmuş və tədqiqatı aparılmışdır. Məlum olmuşdur ki, Mingəçevirin torpaq qəbirlərindən aşkar olunmuş borulu oxların iki daha çox yayılmış növləri müxtəlif qəbirlərdən tapılmışdır və müxtəlif xronoloji dövrlərə aiddirlər. Bu da onu göstərir ki, skif tipli oxlar dəyişilir və təkmilləşirdi. Belə təkmilləşmə və ox tiplərinin əvəz olunması Şimali Qara dənizdə baş verən analoji proseslərə uyğun gəlir, lakin Əhəməni komplekslərində aşkar olunmuş skif tipli oxların arasında təsdiqini tapmır. Belə ki, burada e.ə. III əsrədək arxaik skif tipli oxlar istifadə olunurdu. Beləliklə, bu faktlar Mingəçevirin torpaq qəbirlərindən aşkar olunmuş tapıntıların Əhəmənilərlə heç bir əlaqəsinin olmadığını göstərir və onları Şimali Qara dəniz skifləri ilə qohum olan əhali ilə əlaqələndirmək lazımdır.

---

[9] Fürtwängler, A. E. Knauß, F... S.352 f.

Aydın olmuşdur ki, bir çox hallarda skiflərlə əlaqələndirilən komplekslərdən tapılmış Azərbaycanın qoç başlı zoomorf qulplu daş kasalarının Cənubi Ural və Qazaxıstanın qoç başı təsvirli daş lövhələrlə ümumi tipoloji xüsusiyyətləri vardır. Dissertasiya işində Tovuz və Şəki ərazisində aşkarlanan skif tipli avadanlığa malik ən yeni komplekslər və Füzulidən tapılmış ən son təsadüfi tapıntılar tədqiq olunmuşdur.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Əldə olunmuş nəticələr istifadə oluna bilər: 1) Azərbaycanın qədim və ümumi tarixinin yazılmasında; 2) Azərbaycan xalqının etnogenezinin tədqiqində; 3) erkən dəmir dövrü pintader aşkar edilən yaşayış yerlərinin və kurqanların tədqiqində; 4) Azərbaycan arxeologiyasında dəfn adətlərinin öyrənilməsində; 5) Azərbaycandan tapılmış yeni skif tipli əşyaların dövrünün müəyyənləşdirilməsində; 6) Azərbaycan və digər türk xalqlarının dastan, mif və folklor irsinin tədqiqində; 7) Azərbaycanın və Avrasiyanın bir çox regionlarının qədim əhalisinin dünyagörüşünün müəyyənləşdirilməsində; 8) türk və digər qədim xalqların irsində paralellərin araşdırılmasında; 9) qədim xalqların dünyagörüşünün rekonstruksiyasında; 10) qədim Ural-Altay xalqlarının dillərinin bərpasında; 11) yeni mətn materiallarının, İssık yazısı ilə yazılmış yeni tapıntıların oxunmasında.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyanın əsas istiqamətləri, onun metodoloji əsasları və nəticələri aşağıdakı formalarda aprobasiya olunub: "Çar skiflər: çar skiflərin və qədim oğuzların etno-dil eyniləşdirilməsi" monoqrafiyası Bakı Dövlət Universitetinin "Qədim dünya və orta əsrlər tarixi" kafedrasında müzakirə olunub və onun qərarı ilə 2004-cü ildə çap edilməsi tövsiyə olunub. «Социально-культурные ценности скифов» ("Skiflərin sosial-mədəni dəyərləri") monoqrafiyası Beynəlxalq Türk Akademiyasının elmi şurasında müzakirə olunub və onun qərarı ilə 2013-cü ildə çap edilməsi tövsiyə olunub. Avstriya, Azərbaycan, Macarıstan, Yunanıstan, Qazaxıstan, Polşa, Rusiya, ABŞ, Çexiya, Ukraynada (Aktyubinsk 2011; Ankoric 2009; Astana 2011, 2014, 2016; Bakı 2011, 2013; Budapeşt 2008, 2009, 2010; Varşava 2011, 2012, 2014; Qrats 2017; Delfi 2015; Dnepropetrovsk 2013; Kiyev 2012; Moskva 2012, 2014; Pilzen

2013; Salonik 2018, Florensiya 2018, Çeboksar 2011) keçirilən elmi konfranslarda və dəyirmi masalarda dissertasiyanın məzmunu məruzələr şəklində təqdim olunub. Dissertasiya AMEA Tarix İnstitutunun Azərbaycanın qədim tarixi şöbəsində müzakirə olunub və müdafiəyə tövsiyə olunub.

Dissertasiyada əldə edilmiş nəticələr istifadə oluna bilər: 1) Azərbaycan ərazisində skif dövrü abidələrinin daha sıx yerləşdiyi bölgələri təyin etməkdə və beləliklə daha sonra məhz bu bölgələrdə yeni abidələri aşkar edib arxeoloji qazıntılara cəlb etməkdə; 2) yeni arxeoloji abidələrin və skif tipli materialların xronologiyasını təyin etməkdə; 3) dərslik və tədqiqat dövrünə aid ümumiləşdirici elmi nəşrlərin tərtib edilməsində; 4) turistlər üçün bukletlərin və muzey ekspozisiyalarının tərtib və təşkil edilməsində.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı**. Dissertasiya AMEA A.A. Bakıxanov ad. Tarix İnstitutunun Azərbaycanın qədim tarixi şöbəsində yerinə yetirilib.

**Dissertasiyanın ümumi həcmi**. Dissertasiya işi girişdən, altı fəsildən, nəticədən, istifadə olunmuş ədəbiyyatın siyahısından və əlavələrdən ( o cümlədən 72 rəsmdən və 17 tablodan) ibarətdir. Dissertasiya işinin ümumi həcmi (istifadə olunmuş ədəbiyyat siyahısı və əlavələr istisna olmaqla) intervalsız 527,884 təşkil edir. Onlardan Giriş – 41,667, I Fəsil – 62,949, II Fəsil – 126,377, III Fəsil – 48,940, IV Fəsil – 61,557, V Fəsil – 107,612, VI Fəsil – 51,348, Nəticə – 22,986 işarədən ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın "**Giriş**" hissəsində problemin aktuallığı, öyrənilmə səviyyəsi, işin elmi yeniliyi, mənbəşünaslıq bazası, metodoloji əsası, elmi işin nəzəri və praktiki əhəmiyyəti, mövzunun seçilməsi və tədqiqatın məqsədi haqqında danışılır.

Dissertasiyanın birinci fəsli "**Yazılı mənbələr Qafqaz silsiləsinin cənubundakı skiflər haqqında**" adlanır və beş paraqrafdan ibarətdir.

Birinci paraqraf "**Qədim yunan mənbələri**" adlanır və burada tədqiq olunan problem üzrə qədim yunan mənbələrinin xülasəsi verilir. Onların arasında Herodot, Aristey, Strabon, Pompey Troq və Siciliyalı Diodorun adları çəkilir. Skiflərin Cənubi Qafqazda mövcudluğunu təsdiqləyən yazılı faktlar göstərilir. Herodotun üsyankar skiflər haqqında verdiyi məlumatın təhlilinə əsasən aydın olur ki, onların çar skiflərinə heç bir aidiyyatı yoxdur və onların Qafqazın cənubuna miqrasiyası çar skiflərinin Midiyanı tərk etmələrindən sonra baş vermişdir.

İkinci paraqraf "**Yaxın Şərq yazılı mənbələri**" adlanır. Burada assuriya, yəhudi, fars və yeni-babil yazılı mənbələri təhlil olunur. Bu paraqrafda tədqiqatçıların assuriya mənbələrinə əsasən skiflərin Yaxın Şərqdə, eləcə də fars və yunan mənbələrinə əsasən skif-sakların Şimali Qara dənizdə, Mərkəzi Asiyada və Midiyada məskunlaşması haqqında fərziyyələri göstərilir. Əhdi-ətiqdə elmdə skiflərlə eyniləşdirilən "şimal xalqı" haqqında məlumat qeyd olunur. Həmçinin, qeyd olunur ki, yeni-babil yazılı mənbələrində kimmerlər və skiflər ümumiləşdirici "*gimiri*" etnonimi altında gedirlər. Skiflərlə bağlı hadisələrin müxtəlif dövrləşməsi haqqında tədqiqatçıların fərziyyələri göstərilir.

"**Skif yürüşlərinin və onların 28 illik hegemonluqlarının xronologiyası**" adlanan üçüncü paraqrafda tədqiqatçıların bu problemin dövrləşməsi ilə bağlı fərziyyələri tədqiq olunur. Bu fərziyyələr müxtəlif arqumentlərə əsaslanır.[10] Daha sonra çar skiflərinin Midiyanı tərk etmələrinin dövrü ilə bağlı fərziyyələr göstərilir. Bəzi tədqiqatçılar hesab edirlər ki, çar skifləri e.ə 585-ci ildə,yəni üsyankar skiflərin məğlubiyyətindən sonra və Midiya ilə Lidiya[11] arasında sülhün imzalanması ərəfəsində Asiyanı tərk edirlər. Bu tədqiqatçıların nəticələri çar və üsyankar skiflərin eyniləşdirilməsinə əsaslanır. Belə eyniləşdi-

---

[10] Дьяконов, И. М. История Мидии: от древнейших времен до конца IV в. до н.э. / И. М. Дьяконов – Москва–Ленинград: АН СССР, – 1956. – с.289; Иванчик, А. И. Накануне колонизации / А. И. Иванчик. – Москва–Берлин: Paleograph, – 2005. – с. 243.

[11] Артамонов, М. И. Киммерийцы и скифы / М. И. Артамонов. – Лениград: Ленинградский Университет, – 1974. – с.33-34.

rilməyə əsaslanan bir çox tədqiqatçılar hesab edirlər ki, çar skiflər midiyalılara qulluq edirdi[12], lakin Herodot çar skiflərinin Kiaksara tabe olmaları haqqında heç nə yazmır. Ona yalnız üsyankar skiflər tabe idi.[13] Çar və üsyankar skiflərin qarışdırılması bir çox tədqiqatçıların əsərlərində rast gəlinir. Yalnız bəzi müəlliflər başa düşür ki, üsyankar skiflər hökmdar, yəni çar skiflər ola bilməzlər. Bu müəlliflərin arasında Y.A.Qrantovskinin və A.Y.Alekseyevin[14] adlarını çəkmək olar.

28 illik hegemonluq probleminin həllində biz V.A.Belyavskinin təklif etdiyi sxemdən istifadə etmişik. Bu sxemə əsasən midiyalı Kiaksar hakimiyyətə e.ə. 625/24-cü ildə gəlir, e.ə. 623-cü ilin sonunda isə o, Nineviyanın işğalına başlayır. Bu dövrdə skiflər Midiyaya hücum edib, Kiaksarı məğlub edirlər və Ön Asiyanı işğal edirlər. V.A.Belyavski skiflərin Asiyadakı hegemonluq dövrünü e.ə. 622-594-cü illərə aid edir.[15] Dissertasiyada qeyd olunur ki, çar skiflər Asiyanı tərk edəndən sonra aşağıdakı hadisələr cərəyan edir:

e.ə. 594-cü il – çar skiflər Midiyanı tərk edir və Qara dəniz sahillərinə qayıdırlar. Burda isə onlar və korların oğulları arasında müharibə başlayır.

e.ə. 593-592-ci illər – korların oğulları çar skiflərdən qaçıb, üsyankar skiflər adı altında Midiyaya, Kiaksarın yanına gəlirlər.

---

[12] Zawadzki, Stefan. The Fall of Assyria and Median-Babylonian Relations in the Light of Nabopolassar Chronicle / Stefan Zawadzki. – Poznan: A. Mickiewicz Univ. Press, – 1988. – p.82; Иванчик А.И. Накануне... с.227, 243; Медведская, И. Н. Древний Иран накануне империи: история Мидийского царства / И. Н. Медведская. – Санкт-Петербург: Петербургское востоковедение, – 2010. – с.208.

[13] Геродот. История. Пер. Стратановского Г.А. / Геродот. – Ленинград: Наука, – 1972. – I, 73.

[14] Алексеев, А. Ю. Хронография Европейской Скифии VII-IV веков до н.э. / А. Ю. Алексеев. – Санкт-Петербург: Гос. Эрмитаж, – 2003. – с.122; Грантовский, Э. А. О хронологии пребывания киммерийцев и скифов в Передней Азии. // , – 1994. № 3, – с. 43.

[15] Белявский, В. А. Война Вавилона за независимость (627-605 гг. до н.э.) и гегемония скифов в Передней Азии / Исследования по истории стран Востока. – Ленинград: Изд. Ленинградского унив., – 1964, – с. 105, 127.

e.ə. 590-cı il – üsyankar skiflər Kiaksarın əlindən Lidiyaya qaçırlar. Midiya və Lidiya arasında 5 il davam edən müharibə başlayır[16].

e.ə. 585-ci il – Midiya və Lidiya arasında gedən müharibə sona çatır.

"**Yaxın Şərq və yunan mənbələrinin müqayisəli öyrənilməsi**" adlı dördüncü paraqrafın əvvəlində Nabupalassarın yeni-babil xronikasından ("Gaddın xronikası") məlumat təhlil olunur. Herodot yazır ki, midiyalılar aşşur paytaxtı Nineviyanı işğal edəndə skiflər Madinin başçılığı altında gəldilər və onları məğlub etdilər.[17] D.C.Uayzman bu hadisələri e.ə. 623-cü ilə aid edir. Nineviyaya növbəti hücum e.ə. 614-612-ci illərə təsadüf edir.[18] "Heddin xronikası"nda Assuriyaya qarşı hərbi əməliyyatlarla və Nineviyanın işğalı ilə əlaqədar umman-manda çarı qeyd olunur. S.C.Gadd qərara gəlmişdir ki, "umman-manda" termini altında bu mətndə skiflər nəzərdə tutulur, beləliklə, umman-manda çarı skif çarı Madidir[19].

Daha sonra "**Umman-manda**" termininin mənası araşdırılır. "Umman-manda" termini ilə bağlı ən konstruktiv fərziyyə Gaddın və Belyavskinin fərziyyələridir. Onlar eyni zamanda bu terminin dövrünə də izahat verirlər. Gadd və Belyavski hesab edirlər ki, müxtəlif dövrlərdə umman-manda adı ilə müxtəlif xalqları adlandırırdılar. Erkən dövrdə kimmerlərə, Nineviyanın işğalı dövründə skiflərə, Astiaqın dövründə isə bu termin midiyalılara şamil olunurdu. Akkad astroloji proqnozlarının birində izah olunur ki, umman-manda- kimmerlərdir[20].

Daha sonra bu paraqrafda "**Ktesinin əsərində Nineviyanın işğalı**" təhlil olunur. Belə bir fikir var ki, Ktesinin əsərində Arbak Kiak-

---

16 Геродот… I, 73-74, IV, 3.

17 Yenə orada, I, 103.

18 Wiseman, D. J. Chronicles of Chaldaean Kings (626-556 B.C.) in the British Museum / D. J. Wiseman. – London: The Trustees of the British Museum, – 1956. – pp. 10, 13-14.

19 Gadd, C. J. The Fall of Nineveh. The Newly Discovered Babylonian Chronicle, No. 21,901, in the British Museum / C. J. Gadd. – London: The Trustees of the British Museum, – 1923. –p.13-15, B.M. 21901, 38-52.

20 Hartman, Louis F. The Date of the Cimmerian thereat Against Ashurbanipal According to ABL 1391 // Journal of Near Eastern Studies, – 1962. Vol. XXI, – p.28.

sardır, generaldır, Assuriyanın zadəganı və təbəəsi olmuşdur və o, hər il Assuriyaya göndərilirdi. Başqa sözlə, o, Assuriyanın Midiyadakı canişini olmuşdur. Arbak 28 il hökm sürmüşdür. Onun oğlunun adı Maudakdır[21]. Bütün bu xüsusiyyətlər Arbakı Kiaksarla eyniləşdirməyə imkan vermir, çünki Kiaksar Assuriyanın təbəəsi yox, düşməni idi. Kiaksar 28 il yox, 40 il hökm sürmüşdür və onun oğlunun adı Maudak yox, Astiaq idi. D.C.Uayzman və V.A.Belyavski hesab edirlər ki, Nineviyanın işğalı zamanı Arbakın köməyinə gələn baktriyalılar Madinin skifləridir.[22] İ.V.Pyankova görə, Ktesinin əsərində Baktriya Sır-Dərya çayından Hind çayına qədər olan ərazini əhatə edir.[23] Bu ərazini Mərkəzi Asiyanın sakları ilə eyniləşdirmək olar, amma Madinin çar skifləri ilə yox. Bu fikir belə təsdiq olunur ki, Ktesiyə görə, Baktriya Assuriya tərəfindən işğal olunmuşdur.[24] Hadisələrin düzgün cərəyanı belə olmuşdur: Assuriyanın vassalı olan baktrilər (saklar) öz hökmdarlarının köməyinə gedirlər, yolda onları Arbak öz qoşunları ilə qarşılayır və öz tərəfinə çəkir.

Ktesinin məlumatı doğru kimi qəbul edilə bilər. Belə ki, onun Nineviyanın uzun sürən mühasirədə olduğu barədə məlumatı arxeoloji faktlarla da sübut olunur. Cənub-şərq qapılarının (Halzi Gate) qazıntısı zamanı məlum olmuşdur ki, 7 metrlik daşdan hörülmüş giriş qapısı çiy kərpicdən yenidən tikilmiş və hündürlüyü 2 metrə qədər enmişdir. Eyni vəziyyət digər iki qapılarda da müşahidə olunur. [25]

Daha sonra Mücəbildə, Aşağı Fəratda aşkar olunmuş "**Nabonidin stellası**"ndakı məlumatlar araşdırılır. Stellanın ikinci sütununda Nabu-

---

[21] Diodorus Siculus. Library of History / Diodorus Siculus. Trans. Oldfather C. H. – Cambridge–London: Harvard University Press, – Books I-II.34. Volume I, – 1933. –II, 24-27, II, 32, *6*.

[22] Wiseman D.J… p.15-16; Белявский В.А… с.115.

[23] Пьянков, И. В. "История Персии" Ктесия и среднеазиатские сатрапии ахеменидов в конце 5 в. до н.э. // Вестник древней истории, – 1965. №2, – с.39-40.

[24] Diodorus Siculus… II, 6-7.

[25] Van De Mieroop, Marc. The Sack of Nineveh in 612 BC / Petit Lucas P., Morandi Bonacossi Daniele (eds.) Nineveh, the Great City, – Leiden: Sidestone, – 2017, – pp. 244.

palassarın Umman-manda çarı ilə qarşılıqlı münasibətləri haqqında danışılır. Tədqiqatçıların fikrinə görə, stellanın mətnində Nineviyanın dağılması da daxil olmaqla[26] müxtəlif tarixi hadisələr təsvir olunur. Petrovo-Solovovo qeyd edir ki, bu mətndə Kiaksarın adı çəkilmir. Nineviyanın işğalı babililər və midiyalılara[27] aidiyyatı olmayan İriba-Tuktenin başçılığı altında vuruşan Umman-manda xalqı ilə bağlıdır.

A.L.Frotinqam və A.Markuand hesab edirlər ki, bu yazıda adı çəkilən babil hökmdarı Nabupalassardır. Onların fikrinə görə, V.Şeylin tərcüməsi yunan mənbələrinə ziddir. Belə ki, yunan mənbələrinə görə, Nineviya Kiaksar tərəfindən işğal olunmuşdur.[28] Herodot yazır ki, midiyalılar Nineviyanı işğal etmişdir, lakin hansı hökmdarın dövründə baş verdiyini qeyd etmir. Herodotun yazısında aydın göstərilir ki, midiyalılar skifləri içirdib öldürəndən sonra Nineviyanı işğal ediblər.[29] Bu hadisə e.ə. VI əsrin əvvəllərində baş vermişdir. Nineviyanın işğalı isə e.ə. VII əsrin sonuna aid edilir. Beləliklə, Herodotun yazısında Nineviyanın ikinci işğalı haqqında bəhs olunur. Y.Markvart İriba-Tuktenin adını kimmer çarı Tuqdammenin adı ilə müqayisə edir.[30]

Beşinci paraqrafda bu fəsildə göstərilən "**Tədqiqatçıların konseptual nöqsanları**" cəmlənmişdir.

Dissertasiyanın ikinci fəsli **"Azərbaycanda skif qəbir abidələri"** adlanır və dörd paraqrafdan ibarətdir. Birinci paraqraf "**Qəbir tipləri və dəfn adətləri**" adlanır. Bu paraqrafa daxil olan qəbirləri onlardan tapılan materiallar baxımından üç qrupa bölmək olar: 1) skif tipli əşyalar və adətlər; 2) skif-sak dünyasının digər regionların-

---

[26] Scheil, V. Une nouvelle inscription de Nabonide // – Paris: Comptes rendus des séances de l'Académie des Inscriptions et Belles-Lettres, – 1895, de Mai-Juin, – c.225.

[27] Петрово-Соловово, М. М. Краткий очерк истории отношений между Ассиро-Вавилонией и евреями / М. М. Петрово-Соловово. – Санкт-Петербург, – 1895. – c.95-97.

[28] Frothingham, A.L.J., Marquand, A. Archaeological News. Inscription of Nabonidos (555-538 B.C.) // – Boston: The American Journal of Archaeology and of the History of the Fine Arts, – 1896. Vol. 11, – p.96.

[29] Геродот… I, 106.

[30] Marquart, J. Untersuchungen zur geschichte von Eran // – Berlin: Philologus: Zeitschrift für das klassische Alterthum, – 1896, Heft LV, – S.230.

da analogiyalarına rast gəlinən paleoantropoloji materiallar və adətlər; 3) skif tipli əşyalar. Birinci iki qrup skiflərin miqrasiyasının nəticəsi kimi təhlil olunur və onlarla eyniləşdirilir. Birinci paraqrafın əvvəlində Azərbaycanın "**torpaq qəbirlər**"inin təsviri verilir. Mingəçevirdə uzadılmış skeletlərin müəyyən qismi cüzi dərinlikdə dəfn olunmuşdur (1,5 m). Bəzi skeletlərin üzərində ağac qalıqlarının izləri görünür. Bu dəfn adətinin analogiyaları Tyasmin çayı hövzəsinin erkən skif kurqanlarında izlənilir.[31] Mingəçevirdəki içərisində uzadılmış skeletlər aşkar olunan torpaq qəbirlərin 70%-də saxsı qablar iri ölçüdədir və mərhumun ayaqlarının yanına qoyulmuşdur.[32] Qabları mərhumun ayaqlarının yanına qoymaq adəti Qazaxıstanda Uyqarak skif qəbirlərinə xasdır.[33] Bu adətin detalları belə qəbirlərin yaranmasını e.ə. VII əsrə aid etməyə imkan verir. Buna bir sübut da Mingəçevirdəki 100 və 122 №-li torpaq qəbirlərində borulu ox ucluqlarının arxaik tipinin daha sonrakılarla əvəz olunmasıdır.[34]

Şəmkir rayonunda yerləşən Şəmkir nekropolunda 25 tək və 16 kollektiv dəfn həyata keçirilmiş qəbir aşkar olunmuşdur. Qəbirlərdə Jabotin tipli üçdəlikli qantarğa, dəmir nizə ucluqları, skif tipli ox ucluqları və at qalıqları tapılmışdır. At kəllələrinin birində dəmir nizə ucluğu vardır. Bununla yanaşı, od ayini, oxraya boyanmış skeletlər, bəzən isə parçalanmış skelet qeydə alınmışdır.[35] Bir neçə borulu, tikanlı ox ucluqları (əksəriyyəti ikiqanadlıdır) Şəmkirdə gil mədəninin yanındakı təpənin üzərində yerləşən dağıdılmış qəbirlərdən aşkar

---

[31] Ильинская, В. А. Раннескифские курганы бассейна р. Тясмин / В. А. Ильинская. – Киев: Наукова думка, – 1975. – с.80-92.

[32] Ионе, Г. И. Археологические раскопки в Мингечауре // – Баку: Доклады АН Азербайджанской ССР, – 1946. №9, т. 2, – с. 399-405.

[33] Вишневская, О. А. Культура сакских племен низовьев Сырдарьи в VII-V вв. до н.э. / О. А. Вишневская. – Москва: Наука, – 1973. – с.74-75, рис. 45, табл. XXII: 21.

[34] Ox ucları (24 ədəd, sümükdən. Eyni inventar nömrəsi altında tunc ox ucları), Mingəçevir // AMEA Milli Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondunun materialı: AF. 13219. 1947; Журнал №2 находок на мингечаурском могильном поле за 1947 г. // AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun elmi arxivi: İnv. nömrəsi verilməyib, 1947, Inv. №1641; Inv. №1912.

[35] Асланов, Г. Г. Шамхорский могильник / Г. Г. Асланов. – Баку: Элм, – 1986. – с.4-5, 14-15.

olunmuşdur. Onların arasında Yencədəki 2 №-li kurqanın 1-ci qəbirindən tapılmış oxların oxşarları da var.[36]

Şəkinin Yoncalı nekropolunun iki qəbirindən üç arxaik borulu ikiqanadlı ox ucluğu tapılmışdır.[37]Qonşu Təpəbaşı nekropolunun 4 №-li qəbirində parçalanmış skelet və ocaq izləri qeydə alınmışdır. E.ə. VII əsrə aid olan 9 №-li qəbirdə parçalanmış skeletlərdən ibarət kollektiv dəfn icra olunmuşdur.[38] Qəbirdən aşkarlanmış kəllələrin kranioloji tədqiqatları onlardan ikisinin "Aral ətrafı, Tyan-Şyan və Altayın sak tayfalarının sinxron qrupları ilə bənzərliklərini qeydə almışdır".[39]Od ayini ilə müşahidə olunan kollektiv dəfnlər Cənubi Aralın Sakarçaqa nekropolunda rast gəlinirlər. Yarıparçalanmış cəsədlərin kollektiv dəfnləri Cənubi Aralın Kuyusay qrupuna xas adətdir. E.ə. VIII-VII əsrlərə aid olan bu qəbir abidələrinə xas olan əlamətlər L.T.Yablonskinin və A.D.Tahirovun əsərlərində geniş təsvir olunmuşdur.[40]

Daha sonra bu paraqrafda "**kurqanlar**" təhlil olunur. Xocalı nekropolunun üç böyük torpaq örtüklü kurqanlarında (1, 2, 18 №-li) ölüyandırma adətinin izləri aşkar olunmuşdur.[41] 2 №-li kurqanın yandırılmış təbəqəsində ağac konstruksiyanın qalıqları, insan və heyvan sümükləri tapılmışdır. Buradan tapılmış və Kiçik kurqanda analogiyalarına rast gə-

---

[36] Кесаманлы, Г. П., Гусейнова, М. А. Отчет первого отряда шамхорской археологической экспедиции за 1980 г. // AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun elmi arxivi: İnv. № h-260, 1980, c.14.

[37] Muxtarov, N., Bədəlova, İ., Əmrah-qızı, C. Şəki Arxeologiya və Folklor qrupunun, Şəki-Qax-Oğuz arxeoloji ekspedisiyasının 2013-cü ildə gördüyü işlərin Hesabatı // AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun arxivi: İnv. № – 777, 2013, s.23.

[38] Alməmmədov, X. Təpəbaşı nekropolu. // – Bakı: Azərbaycan arxeologiyası, – 2006. VIII, № 1-4, – s.65-69.

[39] Кириченко, Д. Новые материалы к палеоантропологии Азербайджана // – Bakı: Tarix və onun problemləri, – 2007. № 1, – c.258-260, табл. 1.

[40] Яблонский Л.Т. Саки… с.18-26, 52; Таиров А.Д… с.15-16; Яблонский, Л. Т. Главные миграционные процессы на территории Южного Приаралья в раннем железном веке. // – Волгоград: Нижневолжский археологический вестник, – 2000, вып. 3, – с.66.

[41] Отчет Императорской Археологической комиссии за 1897 г. / – Санкт-Петербург. 1900, – с.47, 151-152, рис. 306; Кушнарева, К. Х. Ходжалинский могильник // – Ереван: Историко-филологический журнал, – 1970. No 3, – с.110-111.

linən dörd qulplu, altı dəyirmi tunc lövhələrdən biri digərinə bərkidilməklə hazırlanmış qazan və üçbucaq şəkilli tunc bəzəkpiləklər, eləcə də Mingəçevir kurqanlarında və skif qəbirlərində bənzərləri olan yırtıcı pişik başlıqlı xaçşəkilli pilək xüsusi diqqət cəlb edir. Həmçinin, buradan tuncdan çubuqvari bağ da tapılmışdır ki, onun da oxşarlarına Uyqarak nekropolunun 51 №-li kurqanında, Sakar-çaqa 6 nekropolunun 20 №-li kurqanında və Norşuntəpədə içərisində at və skif tipli əşyalar olan qəbirdə rast gəlinir. 18 №-li kurqanın örtüyündə od izləri olan təbəqə aşkar olunmuşdur. Kurqanın cənub hissəsində qərb-şərq istiqamətində uzadılmış üç mərhum dəfn olunmuşdur. Kurqandan maral fiqurlu tunc başlıq tapılmışdır. O ki qaldı kremasiyalı kollektiv dəfnlərə, şərq-qərb istiqamətdə arxası üstə uzadılmış ölübasdırma adətinə, kremasiya və inqumasiya adətlərinin bir yerdə icra olunmasına, qeyd edək ki, bu adətlərin əlamətləri e.ə. VIII-VII əsrlərə aid olan Cənubi Aral nekropolları (Sakar-çaqa 6) üçün xarakterikdir.[42] 1,2 və 18 №-li Xocalı kurqanları e.ə. VIII əsrin ortalarına, daha dəqiq desək, e.ə. VIII əsrin ikinci yarısına aiddir.[43] Bu kurqanların materialları və dəfn adətləri Aralyanı skif-saklarının burada olmasına işarədir.

Kiçik kurqanda başı qərbə doğru tək ölü dəfn olunmuşdur. Buradan at kəlləsi, üçdəlikli qantarğalı at gəmləri, tunc at bəzəkləri-piləklər, at alınlığı, çərtmə naxışlı bəzək əşyası, skif tipli üçqanadlı ox ucluğu və s. tapılmışdır.[44] At alınlığının analogiyalarına Ziviyədəki skif çar dəfinəsində, üçdəlikli qantarğalı at gəmləri isə Sakar-çaqa 6 nekropolunun 23 №-li kurqanında rast gəlinir.

Mingəçevirdə beş kurqan tədqiq olunmuşdur. Onların hamısı tək ölü, yanlarında isə at və s. dəfn olunmuş qəbirlərdir. 5 №-li kurqanın qəbir kamerasında çoxlu od izləri və gil topaları vardır.[45] Bu kurqan-

---

[42] Яблонский Л.Т. Саки… с. 18-26; Таиров А.Д… с. 16.

[43] Погребова, М. Н. История Восточного Закавказья: вторая половина II – начало I тыс. до н.э. / М. Н. Погребова. – Москва: Восточная литература, – 2011. – с.196.

[44] Иессен, А. А. Из Исторического Прошлого Мильско-Карабахской Степи / А. А. Иессен, К. Х. Кушнарева (ред.) Труды Азербайджанской Археологической Экспедиции: [в 2-х томах] 1956-1960 гг. – Москва–Ленинград: Наука, – 1965. Т. II, – с.22-30.

[45] Асланов, Г. М. Древний Мингечаур / Г. М. Асланов, Р. М. Ваидов, Г. И. Ионе. – Баку: АН Азербайджана, 1959. – с.90-114.

larda üçdəlikli qantarğalar və xaçşəkilli piləklər tapılmışdır. Bu əşyaların bənzərləri kimmer və skif qəbirlərindən məlumdur.[46]Kurqan örtüklərinin altında skif kurqanlarından bizə tanış olan çadırvari ağac konstruksiyanın izləri görünür.[47] Tədqiqatçılar bu kurqanları e.ə. VII əsrə aid edir və qeyd edirlər ki, bu abidələr skiflərin Cənubi Qafqazda daha erkən dövrdə olmalarına işarədir.[48]

Dissertasiya işinə cədvəl (2 №-li cədvəl) əlavə olunmuşdur. Bu cədvələ əsasən Dneprovsk sağ-sahil meşə-çöl sahəsinin, Mingəçevir kurqanlarının və Kiçik kurqanın dəfn adətlərini müqayisəli şəkildə təhlil etmək olar. Cədvəlin tərtibində S.A.Skorıy tərəfindən tərtib edilmiş Dneprovsk sağ-sahil meşə-çöl sahəsinin dəfn adətlərinin əlamətlərini əks etdirən cədvəl əsas götürülmüşdür.[49] Həmin cədvələ Azərbaycan kurqanları haqqında olan məlumatlar əlavə olunmuşdur. Kiçik kurqanın və Mingəçevir kurqanlarının materialları və əlamətləri Azərbaycanda skif qəbir abidələrinin e.ə. VII əsrdə artıq mövcud olduğunu göstərir.

Daha sonra bu paraqrafda "**daş qutular və sərdabələr**" təhlil olunur. Qalakənddəki 47 №-li daş qutuda qoşa dəfn adəti izlənilir. Buradan insan skeletləri ilə yanaşı at skeleti, ikihissəli at gəmləri və bir qırağı yastılaşmış üçdəlikli at qantarğaları aşkar olunmuşdur.[50] S.V.Maxortıx onların kimmerlərə məxsus olduğunu qeyd edir və e.ə. VIII əsrin son rübünə aid edir.[51]

---

[46] Галанина, Л. К. Келермесские курганы: Царские погребения раннескифской эпохи / Л. К. Галанина. – Москва: Палеограф, – 1997. – с.128; Ильинская, В. А. Скифы Днепровского Лесостепного Левобережья / В. А. Ильинская. – Киев: Наукова думка, – 1968. – табл. XLVI.

[47] Скорый, С. А., Хохоровский, Я. Аристократический курган Скифская Могила вблизи Мотронинского городища. // Stratum Plus, – 2005-2009. №3, – с.274, рис. 5.

[48] Ильинская, В. А. Скифия VII—IV вв. до н. э. / В. А. Ильинская, А. И. Тереножкин. Киев: Наукова думка, – 1983. – с.26, 34.

[49] См.: Скорый С.А. Скифы… с.45-53.

[50] Nagel, V. Qalakənd / V. Nagel, J. Ştrommenger. – Bakı: Diplomat, – 1999, – s.81-82, tabl. 19-20.

[51] Mahortih, S. Между Центральной Европой и Кавказом: Северное Причерноморье в начале I тыс. до н.э. (на венгерском яз.) // "Magyarország-Azerbajdzsán: a kultúrák párbeszéde". V Nemzetközi tudományos konferencia. – Budapest, – 2010. – c. 60-61.

Daşkəsəndə, Xoşbulaqda 4 №-li daş qutudan qoç başlı uzunsov zoomorf qulplu daş kasa və üzərində şişpapaqlı, əlində isə kompozit yay olan insan təsvirli tunc kəmər tapılmışdır.[52] Analoji təsvirlərə malik kəmərlər Tli nekropolunun 74 və 76 №-li qəbirlərindən aşkar olunmuşdur. Tədqiqatçılar kəmərlərdəki kompozit yayla silahlanmış insanları skif hesab edirlər.[53] Abşeron nekropolundakı qərb-şərq istiqamətli daş qutudan borulu, ikiqanadlı, asimmetrik başlıqlı və borusunda tikanı olan tunc ox ucluğu tapılmışdır.

Gədəbəydə 48 №-li daş qutudan isə üçqanadlı ox ucluğu tapılmışdır.[54] Lerikin Buzeyir nekropolunda kollektiv dəfnlə müşahidə olunan sərdabədə dörd ədəd üçqanadlı ox ucluqlarından biri mərhumun kəlləsindən tapılmışdır.

Daha sonra bu paraqrafda Azərbaycan ərazisindən aşkar olunmuş "**müxtəlif tapıntılar**" təhlil olunur. Bunlar Abşeronda 1№-li "İbadətgah"dan, Qarabağda Ağdərə ərazisində yerləşən Nerkin-Qoratandan, Qazax rayonunda qarət olunmuş məzardan, eləcə də Füzulidən, Qazaxın Çaylı kəndindən, Şəmkirin Keçili kəndindən, Naxçıvanın Şahtaxtı, Təzəkənd və Meydantəpə yaşayış yerindən, Cəlilabadın Mişarçay təpəsindən, Lənkəranda son tunc-ilk dəmir dövrünə aid Divəlona məzarlığından aşkar olunmuş təsadüfi tapıntılardır.

İkinci paraqraf "**Keramikanın müxtəlif problemləri**" adlanır. Mingəçevirin 70% skif qəbirlərində ölülərin ayaq tərəfində böyük saxsı qablar qoyulub. Bu adətə həmçinin Abşerondakı skif tipli ikiqanadlı ox ucluğu tapılmış daş qutu qəbirində də rast gəlinir. Bu Uyqarakın skif qəbirlərinə xas bir ənənədir. Sarıtəpədə içərisində uzadılmış skelet dəfn olan və skiflərə aid edilən qəbirdən qaracilalı, armudvari, təkqulplu qab tapılmışdır. Oxşar formalı cilalı qablar Sa-

[52] Кесаманлы, Г. П. Погребение с бронзовым поясом из Хачбулага (Азербайджанская СССР). // Советская археология, – 1966. № 3, – рис. 1-3.
[53] Ильинская В.А., Тереножкин А.И… с.75, 85.
[54] Джафарзаде, И. М. Археологические разведки на Апшероне // – Bakı: Azərbaycan SSR EA xəbərləri, – 1948, № 6, – с.86-87; Ивановский, А. А. По Закавказью. Археологические наблюдения и исследования. 1893, 1894, 1898 гг. Выпуск VI. / А. А. Ивановский. – Москва, – 1911. – с.120.

kar-Çaqa 6 və Uyqarak nekropollarından da aşkar olunmuşdur[55]. Gələcəkdə bu qabların mənşəyini, yerli və yaxud gəlmə olduqlarını araşdırmaq lazımdır. C.Xəlilov skif izlərinin Azərbaycanda olmamasını hesab edir və bunu yanlışlıqla burada skif keramikasının yoxluğu ilə izah edir.[56] Tədqiqatçılar qeyd edirlər ki, skiflər adətən yerli əhalinin saxsı qablarından istifadə ediblər. [57]

Üçüncü paraqraf "**Arxeoloji materialların müqayisəli təhlili**" adlanır. Paraqrafın əvvəlində "**ikiqanadlı, üçqanadlı borulu ox ucluqları**" təhlil olunur. Bu məmulatların təsnifatı problemləri, həmçinin tədqiqatçıların onların dövrü və yaranma regionu haqqında fikirləri göstərilir. A.İ.Melyukovanın və T.V.Ryabkovanın tədqiqatlarına əsaslanaraq hər bir araşdırılan ox ucluğunun təsviri və təsnifatı verilir.[58] Daha sonra skiflərin Yaxın Şərqə miqrasiyası yolunda (Serjen-Yurt, Dərbənd, Abşeron) tapılan ikiqanadlı borulu ox ucluqlarının təsviri verilir. İkiqanadlı borulu ox ucluqları həmçinin Mingəçevirin torpaq qəbirlərində, Füzulidə, Şəkidə və Şəmkirdə tapılmışdır. Şəkidəki Yoncalı nekropolundan tapılan hər üç borulu ox ucluğu rombşəkilli ikiqanadlıdır. Eyni vəziyyət Şəmkirdə də izlənilir. Buradan tapılan ox ucluqlarının bir çoxu rombşəkilli ikiqanadlıdır. Bunlar skif ox ucluqlarının ən qədim formasıdır. Üçqanadlı borulu ox ucluqları isə demək olar ki, Azərbaycanın bir çox yerlərindən tapılmışdır. Gədəbəyin 48 №-li daş qutusundan, Sarıtəpədəki torpaq qəbirdən, "Abşe-

---

[55] Nərimanov, İ. H. 1960-cı ildə Sarıtəpədə arxeoloji qazıntılar. // – Bakı: Tarix İnstitutunun Əsərləri, – 1963. – XVI, şək. 3; Яблонский Л.Т. Саки... рис. 13, 34; Вишневская О.А... табл. XXII: 30.

[56] Халилов, Дж. А. Археологические находки "скифского" облика и вопрос о "скифском царстве" на территории Азербайджана / Либеров П. Д., Гуляев В. И. (ред.) Проблемы скифской археологии. – Москва: Наука, – 1971, – с. 183-187.

[57] См.: Гаврилюк, Н. А. Керамика степной Скифии: / автореферат диссертации на соискание ученой степени кандидата исторических наук) / – Киев, 1981. – с.18; Махортых, С. В. Скифы на Северном Кавказе / / С. В. Махортых. – Киев: Наукова думка, 1991. – с.19.

[58] Мелюкова, А. И. Вооружение скифов / А. И. Мелюкова. – Москва: Наука, – 1964. – с.18, табл. V; Рябкова, Т. В. Курган 524 у с. Жаботин в системе памятников периода скифской архаики. // Российский археологический ежегодник, – 2014. № 4, – с.383.

ron-1" sahəsindəki 1-ci "İbadətgah"dan, Kiçik kurqandan, Tovuzun Qazıqulu nekropolundakı 12 №-li qəbirdən, həmçinin Füzulidən təsadüfən tapılmış üçqanadlı ox ucluqları erkən formalar hesab olunur və e.ə. VII-VI əsrlərə aid edilir[59]. Mingəçevir ərazisində yerləşən 100 və 122 №-li torpaq qəbirlərinin arxeoloji materialları timsalında həm erkən, həm də e.ə. V-IVəsrlərə aid ox ucluqları qeydə alınmışdır. Daha sonra burada "**sümükdən olan ox ucluqları**" təhlil olunur. Onlar iki tipə bölünür: 1) kəsikdə dairəvi, vintvari güllə şəklində olanlar (nadir rast gəlinənlər); 2) piramida şəkilli dördtilli və hər tilində ucunda üçbucaqşəkilli kəsiyi olanlar[60].

Bu paraqrafda həmçinin **at qantarğaları** araşdırılır. Y.Xoxorovski və S.V.Maxortıx[61]tərəfindən təklif olunmuş Şimali Qafqazın və Şərqi Avropanın gəm və qantarğaların təsnifatına əsaslanaraq dissertasiya işində Azərbaycandan tapılmış dolama mildən hazırlanmış tunc gəmin və bərkidilməmiş üçdəlikli qantarğaların təsnifatı təklif olunur. Azərbaycan ərazisində belə materiallar Mingəçevir kurqanlarından, Kiçik kurqandan, Şamxor nekropolundan, Gədəbəydə Qalakənddən, Lənkəranda Divəlonadan tapılmışdır. Belə arxeoloji materialların tapıldığı komplekslər e.ə. VIII əsrin ikinci yarısı və e.ə. VII əsrlərə aid edilir.

Azərbaycan ərazisində tapılmış və dissertasiyada tədqiq olunan qantarğaları ayrıca taxılan gəmlərin əksəriyyəti ya skif tipli əşyalar ehtiva edən qəbirlərdən ya da dəfn adətinin analogiyalarına Dneprovsk sağ-sahil Meşə-çölündə rast gəlinən qəbir abidələrindən aşkarlanıb. Bu faktlar tədqiq olunan əşyaların kimmer və skif mədəniyyəti ilə əlaqəsi olduğunu göstərir. Aydın olur ki, Qalakənd və Divəlonadan tapılmış qantarğaların ucunda xüsusi yastılaşma var. Bu detala əsasən onları erkən qantarğalara, yəni e.ə. VIII əsrin sonu – VII əsrin əvvəllərinə aid etmək olar. Daha sonra burada, Mingəçevir kurqanla-

---

[59] Ox ucları (24 ədəd, sümükdən. Eyni inventar nömrəsi altında tunc ox ucları), Mingəçevir… AF. 13219. 1947; 1947; Журнал №2 находок… Inv. №1641; Inv. №1912.
[60]Ионе Г.И… с.404.
[61] Chochorowski, Jan. Ekspansja kimmeryjska na tereny Europy Środkowej / Jan Chochorowski. Krakow: Uniw. Jagiellonski, – 1993. – s.62-63, рис. 2; Махортых С.В. Киммерийцы Северного Причерноморья. Киев: Шлях, 2005, с.32-33.

rından və Xocalıdakı böyük torpaq kurqanlarından aşkar olunmuş üzərində yırtıcı pişiklərin başları olan xaçşəkilli pilək- rozetlər təhlil olunur. Bu materialların analogiyalarına e.ə. VIII-VII əsrlərə aid kimmer və skif qəbirlərində rast gəlinir. Həmçinin burada Mingəçevirdən tapılmış skif tipli qarmaqvari muncuqlar tədqiq olunur.[62] Onlar e.ə. VII əsrin sonu – VI əsrin əvvəllərinə aiddir.

Daha sonra bu paraqrafda qoç başlı zoomorf qulplu "**daş kasalar**" tədqiq olunur. Belə qablar bir qayda olaraq Azərbaycanda skiflər və skif dəfn adəti ilə bağlı komplekslərdən tapılır. Bunlar Daşkəsəndə tunc kəmər tapılan daş qutu, Xocalıda 2 №-li kurqan, Mingəçevirdəki kurqanlar və onlarla həmdövr olan torpaq qəbirlərdir. Bu kasalar e.ə. VIII və ya VII əsrin əvvəllərinə aiddir[63]. Aydın olmuşdur ki, Azərbaycanın bu daş kasaları Cənubi Ural və Qazaxıstandan tapılmış üzərində qoç başı təsviri olan daş lövhələrlə ümumi tipoloji xüsusiyyətlərə malikdirlər. Belə xüsusiyyətlərdən biri qoçun buynuzları arxasında olan üçbucaqdır[64].

Həmçinin, bu paraqrafda Mingəçevirdəki qadın torpaq qəbirlərindən aşkar olunmuş ucları aralı, dənəvər üsulu ilə düzəldilmiş üçbucaq asmalı "**sırğalar**" tədqiq olunur.[65] Bu sırğaların şərq bölgələrindən[66] tapılmış sırğalar ilə müqayisəli təhlili əsasında məlum olmuşdur ki, Mingəçevirin üçbucaq sırğalar ilə bir tərəfdən Xakasiyanın, Novosibirsk vilayətinin və Qazaxıstanın (Aral dənizinin cənub ətrafı) son tunc dövrü-

---

[62] Tunc at üçün bəzək detalları, Mingəçevir // AMEA Milli Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondunun materialı: AF. 21739. 2009, AF. 21739.

[63] Нариманов, И. Г. Разрушенный курган села Касум-Исмаилова Кировабадского района // – Баку: Доклады АН Азербайджанской ССР, – 1960. XVI, № 7, – с. 714; Погребова М.Н. История… с. 189-190, 196.

[64] Ченченкова, О. П., Таиров А. Д. Плитка с изображением головы барана из села Каракульского / Богдановский В. И. (ред.) Этнические взаимодействия на Южном Урале. – Челябинск, – 2015. – с. 261; Голубкина, Т. И. О зооморфной керамике из Мингечаура. // Azərbaycan Maddi Mədəniyyəti, – 1951. II, – с. 103-140.

[65] Казиев, С. М. Археологические раскопки в Мингечауре. // Azərbaycan Maddi Mədəniyyəti, – 1949. I, – с. 20.

[66] См.: Чугунов, К. В. Серьги раннескифского времени Саяно–Алтая / Ю. Ф. Кирюшин, А. А.Тишкин (ред.) Исторический опыт хозяйственного освоения Западной Сибири. Книга 1. – Барнаул: Изд. АГУ, – 2003, – с. 386-395.

nə aid sırğaları arasında ümumi cəhətlər vardır. Digər tərəfdən isə Mingəçevirin üçbucaq sırğaları ilə Tuva və Altayın e.ə. VII-V əsrlərə aid konuslu sırğaları arasında ümumi cəhətlər izlənilir.

Paraqrafda həmçinin Gəncə ətrafından tapılmış "**skifə aid gil başı**" tədqiq olunur. Y.İ.Krupnov belə nəticəyə gəlmişdir ki, bu tapıntı Kül-Oba kurqanından aşkar olunmuş qabın üzərindəki skif təsvirini təkrarlayır və onu e.ə. V-IV əsrlərə aid edir. Eyni zamanda, V.A.İlyinskaya da bu gil başı skiflərə bənzədir və qeyd edir ki, o Memfisdən tapılmış skiflərin gil fiqurlarını xatırladır.[67]

Daha sonra bu paraqrafda "**xəncərlər**" tədqiq olunur. Azərbaycandan tapılmış bir neçə nüsxə misal çəkilir. Lakin, onların bir çoxunun üzərində başlıq və arakəsmələrin izləri yoxdur. Bu yaxınlarda Tovuzun Qazıqulu nekropolunun 12 №-li qəbrindən skif tipli altı tunc ox ucluğu və dəmir akinak (xəncər) tapılmışdır.[68]

Həmçinin, bu paraqrafda Mingəçevirin iki torpaq qəbrindən aşkar olunmuş "**zoomorf qulplu tunc güzgüləri**" ("olviya" tipli) tədqiq olunur. T.M.Kuznetsova "olviya" güzgülərinin meydana gəlməsini e.ə. VI əsrin ikinci yarısından tez olmayan bir dövrə aid edir. Lakin bəzi tədqiqatçılar hesab edirlər ki, onların meydana gəlməsini e.ə. VII əsrin sonlarına qədər qədimləşdirmək olar.[69] N.L.Çlenova və O.Y.Olqovki

---

[67] Крупнов, Е. И. Глиняная головка "Скифа" из Закавказья. // Вестник древней истории, – 1940. № 3-4. – 370-371; Ильинская, В. А. Изображения скифов времени Переднеазиатских походов / Тереножкин А. И. (ред.) Древности степной Скифии. – Киев: Наукова думка, – 1982, – с.39-40.

[68] Nəcəfov, Ş. Qazıqulu Nekropolundan aşkar edilən skif tipli ox ucluqları. // – Bakı: AMEA-nın Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası, – 2010. № 1-2, – s. 193-200.

[69] Чугунов, К. В. Аржан-2, реконструкция этапов функционирования погребально-поминального комплекса и некоторые вопросы его хронологии. // Российский археологический ежегодник, – 2011. № 1, – с.316; Бандривский, Н. С. Коцюбинчики-2 — новый памятник эпохи скифской архаики в Среднем Поднестровье / В. Ю. Зуев (ред.). Боспорский феномен. Искусство на периферии античного мира. – Санкт-Петербург: Нестор-История, – 2009, – с.37-38. Вахтина, М. Ю., Кашуба, М. Т. раннескифские зеркала с боковой ручкой в Северном Причерноморье: греческое или местное производство? / Балахванцев А.С., Кулланда С.В. (ред.) Кавказ и степь на

belə nəticəyə gəlmişdilər ki, kənar qulplu skif güzgülərinin Asiya mənşəli olmaları ehtimalı var.[70] Mingəçevir güzgülərinin dövrü haqqında ümumi bir fikir yoxdur. Çünki onlar özünəməxsusluqları ilə fərqlənirlər. T.M.Kuznetsova Mingəçevir güzgülərinin e.ə. VI əsrin ikinci yarısına – e.ə. V əsrə aid edir. Lakin o, bunu əminliklə demir, belə ki, o, bu güzgüləri xüsusi güzgülər tipinin modifikasiyası kimi müəyyən edir[71]. Bütün qeyd olunanlara əsasən dissertasiyanın müəllifi belə nəticəyə gəlir ki, Mingəçevir güzgülərinin yaranma mənbəyi həm Yunan mədəniyyəti, həm də Mərkəzi Asiya mədəniyyətləri ola bilər. Buna həm də Mingəçevir güzgüsündəki at təsviri işarə edir.

Sonra bu paraqrafda "**zoomorf başlıqlı qolbaqlar**" tədqiq olunur. Bir çox hallarda bu məmulatlar skiflərlə bağlı komplekslərdən aşkar olunur. Azərbaycanda zoomorf başlıqlı qolbaqların meydana gəlməsini skiflərin buraya gəlişi ilə bağlamaq lazımdır. Persepoldakı barelyef üzərində sak nümayəndə heyətinin bir üzvü (11№-li heyət) əlində zoomorf qolbaqlara çox bənzəyən əşyalar aparır. Lakin onlar böyük ölçülüdür. Çox güman ki, bu dingələrdir. Bu misal aydın şəkildə göstərir ki, skif tipli əşyalar farsların əlinə necə keçirdi. Avropada zoomorf başlıqlı bilərziklər Orta Dnepr sahilində Kiçik Ofirna və Jurovka 407 skif kurqanlarından aşkar olunmuşdur.[72] Kiçik Ofirna kurqanı son faktlara əsasən e.ə. VII əsrin II rübünə və II yarısına – e.ə. VI əsrin əvvəllərinə aid edilir. [73] Jurovka 407 kurqanı e.ə. VI

---

рубеже эпохи поздней бронзы и раннего железа. – Москва: Институт востоковедения РАН, – 2016. – с. 42-48.

[70] Членова, Н. Л. Происхождение и ранняя история племен тагарской культуры / Н. Л. Членова. – Москва: Наука, – 1967. – с.89; Ольговский, С. Я. Походження дзеркал «ольвійського типу» // – Киев: Археологія. 1992. №3, – с.17-19.

[71] Кузнецова, Т. М. Зеркала Скифии VI-III веков до н.э.: [в 2-х томах] / Кузнецова Т. М. – Москва: Таус, – том II, – 2010. – с.15-16, 239-240, 397.

[72] Дараган, М. Памятники раннескфского времени Среднего Поднепровья и Гальштатт: поиск хронологических реперов // – Chişinău: Revista Arheologică, serie nouă, – 2010. Vol. VI, nr. 2, – с. 104, рис. 22.

[73] Смирнова, Г. И. Состояние изучения Западно-Подольской группы памятников раннескифского времени в Лесостепной Скифии в конце XX века / Chochorowski Jan (ed.) Cimmerians, Scythians, Sarmathians. In memory of Prof. Tadeusz Sulimirski. – Krakow: Ksiegarnia Akademicka, – 2004. – с. 421.

əsrin birinci yarısına aiddir.[74] Analoji bilərziklər Şimali Qara dənizin bu dövrə aid digər abidələrində də aşkar olunmuşdur.

Daha sonra bu paraqrafda Azərbaycanın Qazax rayonunun Çaylı kəndindən aşkar olunmuş "**zoomorf qulplu və heyvan qulaqlı mis qazan**" tədqiq olunur. Qazanla bərabər mis külçənin tapılması onun yerli istehsal olmasına işarə edir. Belə qablar Tli nekropolundan və Karmir-blurdan da tapılır.[75] Şimali Qara dənizdə tunc qazanlar skif dövründən öncə meydana gəlmişdir.[76]

Daha sonra bu paraqrafda və yenidən III fəsildə Mingəçevirdən tapılmış "**skif ilahəsinin marallarla təsviri**" tədqiq olunur.

Dördüncü paraqraf "**Mingəçevir və Şəki skiflərinin paleoantropoloji göstəriciləri**" adlanır. D.A.Kiriçenko aydınlaşdırıb ki, Mingəçevirin skif qəbirlərində aşkar olunan kranioloji seriyaların tədqiqində aşağıda sadalananlar müşahidə olunur: 1) kişi seriyasında Ukraynanın çöl skif qrupları və skif "zadəganları" ilə daha çox bənzərlik var (S.İ.Krutsa görə); 2) qadın seriyasında isə "macarıstan skiflərinin yığma seriyası", daha sonra Moldovadan olan skiflər qrupu ilə daha çox bənzərlik var. Şəkinin Təpəbaşı nekropolundakı 9 №-li kollektiv qəbirdən tapılmış beş kəllənin kranioloji tədqiqi göstərdi ki, onlardan üçü Mingəçevirin içərisində uzadılmış skelet dəfn olunmuş torpaq qəbirlərindən tapılmış kəllələrlə eynidir. Digər 2 kəllə isə "Aral, Tyan-Şan və Altayın həmdövr sak tayfa qrupları ilə eyniyyət təşkil edir".[77]

---

[74] Кузнецова, Т. М. От кургана Репяховатая Могила к кургану 407 у с. Журовка / Журавка (хронология) // – Киев: Археологія і давня історія України: Зб. наук. пр. ІА НАН України, 2018. Вип. 2 (27), – с. 446-457.

[75] Рябкова Т.В… рис. V.2: 5-7; Есаян, С. А. Скифские памятники Закавказья / С. А. Есаян, М. Н. Погребова. – Москва: Наука, – 1985. – табл. XX: 7, 9.

[76] Тереножкин, А. И. Ягорлыцкий котел // Советская археология, – 1982. №2, – с. 218-223.

[77] Кириченко, Д. А. Краниология скифов Азербайджана / Bitadze L. et al. (ed.) Anthropology And Ethnology of Caucasus, – Tbilisi, – 2016. – с.195, табл. 1-2; Кириченко, Д. Новые материалы к палеоантропологии Азербайджана // – Bakı: Tarix və onun problemləri, – 2007. № 1, – с.258-260, табл. 1.

Dissertasiyanın üçüncü fəsli "**Gil pintaderlər aşkarlanan yaşayış yerlərində skiflərin arxeoloji izləri**" adlanır və yeddi paraqrafdan ibarətdir. Şimali və Cənubi Qafqazda pintaderlər tapılan yaşayış yerlərində dağıntı və yandırılma izləri, eləcə də skif tipli ox ucluqları aşkar olunur.

Birinci paraqraf "**Sarıtəpə və Azərbaycanın şimal-qərb bölgəsinin digər yaşayış yerləri**" adlanır. Cənubi Qafqazda gil pintaderlər əsasən Azərbaycanın şimal-qərb bölgəsində yerləşən çoxsaylı yaşayış yerlərindən tapılmışdır. Sarıtəpə yaşayış yeri daha çox maraq doğurur. Burada həm dağıntı, həm də yanğın izləri var. Bundan əlavə, burada skiflərlə eyniləşdirilən, içərisində uzadılmış meyid dəfn olunan iki sallama qəbir də aşkar olunub. Bu qəbirlərin birindən 2 ədəd skif tipli üçqanadlı ox ucluğu tapılmışdır. İkinci qəbirdən isə Mingəçevirin skif qəbirlərində rast gəlinən tunc sırğa tapılmışdır.

İkinci paraqraf "**Çeçenistan və İnquşetiyanın Serjen-Yurt və digər yaşayış yerləri**" adlanır. Şimali Qafqazda gil pintaderlərin meydana gəlməsi skiflərdən öncəki dövrə, sıradan çıxması isə e.ə. VII əsrə aid edilir. Gil pintaderlər əsasən Çeçenistanın Serjen-Yurt yaşayış yerinin əsas təbəqəsindən tapılmışdır. Elə bu yaşayış yerində (qəsəbənin girişində) Jabotin tipli arxaik ikiqanadlı borulu ox ucluqları aşkar olunmuşdur. V.İ.Kozenkova və Y.İ.Krupnov yaşayış yerindəki yanğın və dağıntı izlərinə diqqət yetirib, təpənin skiflər tərəfindən işğal olunması nəticəsində burada həyatın e.ə. VII əsrdə dayandığını qeyd edirlər.[78]

Üçüncü paraqraf "**Kaxetiyada Kiskaraant-Qora və Noname-Qora yaşayış yerləri**" adlanır. Noname-Qora təpəsindən dairəvi gil pintader və 17 ədəd skif tipli ox ucluğu tapılmışdır. Onlardan 16 ədədi ikiqanadlı rombvari ucluqludur. Kiskaraant-Qora yaşayış yerində dördkünc formalı gil pintader və 9 ədəd skif tipli arxaik formalı ikiqanadlı, borulu ox ucluğu tapılmışdır. Onlardan iki ədədi yanğın nə-

---

[78] Козенкова, В. И., Крупнов, Е. И. Исследования Сержень-Юртовского поселения. По раскопкам 1964 г. // Краткие сообщения Института археологии, – 1966. вып. 106, – с.85, 87, рис. 37: 5.

ticəsində dağılmış yaşayış yerinin yanmış təbəqəsindən tapılmışdır.[79] Yanmış təbəqədən götürülmüş radiokarbon analizin nəticələri e.ə. VIII əsrin sonu – e.ə. VII əsrin əvvəllərini göstərmişdir.[80]

Dördüncü paraqraf "**Karpat hövzəsinin və Şimal-Qərbi Qara dənizin gil pintaderləri**" adlanır. Gil pintaderlər həmçinin Böyük Macar düzündə də geniş yayılmışdır. Onlar burada e.ə. VI-IV əsrlərdə skif materialları ilə zəngin Vekerzuq mədəniyyətində meydana gəlir. Gil pintaderlər problemi Y.Xoxorovski tərəfindən tədqiq olunmuşdur.[81] O qeyd edir ki, gil pintaderlər Şimali və Cənubi Qafqazda, xüsusən də Azərbaycanda geniş yayılmışdır.[82] Bu əşyaların Karpat-Pont bölgəsində meydana gəlməsi skif tayfalarından olan siginlərin buraya miqrasiyası ilə bağlıdır. Herodot yazır ki, İstr (Dunay) çayının o biri tayında sigin xalqı yaşayır. Onlar özlərini Midiya ərazisindən buraya gələnlərin varisi hesab edirlər. Y.Xoxorovski qeyd edir ki, siginlər skiflərin təzyiqi nəticəsində öz torpaqlarını tərk etməyə məcbur olan Şimali Qafqaz əhalisinin bir hissəsi ola bilər.[83]

Gil pintaderlər Qara dənizin yalnız şimal-qərb hissəsindən məlumdur. Ən qədim tapıntılar (e.ə. VIII-VII əsrlər) Aşağı Dunayda Kartal şəhər yerində və Transilvaniyada Bernadya yaşayış yerində aşkar olunmuşdur. Onlar gil pintaderlərin Qafqazdan şimal-qərbi Qara dənizə miqrasiyasının ən erkən sübutu olmuşdur. Bu tarix gil pin-

---

[79] Mehnert, G. Skythika in Transkaukasien: Reiternomadische Sachkultur im archäologischen Fundkontext / G. Mehnert. – Wiesbaden: Reichert, – 2008. – S.95-97, 160, Taf. 103-104, 107.

[80] Fürtwängler A.E. Knauß F… S.352 f.

[81] Chochorowski, Jan. Die Vekerzug-Kultur: Charakteristik der Funde / Jan Chochorowski. – Warszawa–Krakow: Państwowe Wydawn. Uniwersytet Jagielłońsk, – 1985. – S. 81-83.

[82] Chochorowski, Jan. Scytowie a Europa Środkowa – historyczna interpretacja archeologicznej rzeczywistości. // – Rzeszów: Materiały i Sprawozdania Rzeszowskiego Ośrodka Archeologicznego. – 2014. T. XXXV, – s.27.

[83] Хохоровский, Я. Экологический "стресс" в Западной Сибири в "культурный шок" в Карпатской котловине в конце бронзового века // Международный симпозиум "Terra Scythica", – Алтай, Новосибирск: Институт археологии и этнографии СО РАН, – 17-23 августа, – 2011, – с.143-144; Chochorowski Jan. Ekspansja… s.206.

taderlər tapılan Kiskaraant-Qora və Serjen-Yurt yaşayış yerlərinin dağılması dövrünə təsadüf edir.

Beşinci paraqraf "**Gil pintaderlərin üzərindəki təsvirlərin semantikası: Səma İlahəsi**" adlanır. Burada gil pintaderlərin həndəsi ornamentlərinin təsviri verilir. A.Qolanın tədqiqatına əsaslanaraq[84] qeyd olunmuşdur ki, Azərbaycanın və Macarıstanın gil pintaderləri üzərindəki ornamentlər səma ilahəsi konsepsiyasının təcəssümüdür.

İşlək səthində antropomorf və zoomorf təsvirləri olan bir neçə gil pintader məlumdur. Maral təsvirli gil pintaderlərdən biri Macarıstandan tapılmışdır. Q.İlon onların meydana gəlməsini skiflərin gəlişi ilə əlaqələndirir.[85] Mingəçevirdən tapılmış daş ştampın üzərində geniş libaslı, başında şişuclu baş geyimi olan və əllərini səmaya doğru uzadan antropomorf fiqur təsvir olunmuşdur. Onun hər iki yanında marallar təsvir olunmuşdur.[86] Bu obraz 1 №-li Kelermess kurqanından tapılmış aynanın üzərindəki skif "heyvanlar sahibəsi" və Babil terrakota lövhəsi – "Burney Relief" üzərindəki qanadlı ilahə təsvirlərinə çox yaxındır. Aleksandropol kurqanından aşkar olunmuş şəbəkəli lövhənin üzərində də tədqiqatçılar "heyvanlar sahibəsi" təsvirini müəyyən etmişlər. Lövhənin üzərində qanadlı ilahə, yanlarında isə marallar təsvir olunmuşdur.[87] Daha iki ədəd gil material Krımda Pantikapey və İluratdan tapılmışdır, lakin onlar b.e. I-II əsrlərinə aiddirlər.[88] Dissertasiyada qeyd olunur ki, bu əşyaların üzərindəki skif ilahəsi Arqimpasadır. O, Babil terrakota lövhəsi üzərində əks olunan qanadlı ilahə ilə ümumi xüsusiyyətlərə malikdir.

---

[84] Голан, А. Миф и Символ / А. Голан. – Москва: Руслит, – 1992, – с. 14-16.

[85] Ilon, Gabor. A Scythian Pintadera from Sé // – Budapest: Communicationes Archaeologicae Hungariae, 1999, – p.48, note 2, fig. 1.

[86] Qum daşından tökmə üçün forma, Mingəçevir // AMEA Milli Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondunun materialı: AF. 27042. 2009.

[87] Алексеев, А. Ю. Золото скифских царей из собрания Эрмитажа / А. Ю. Алексеев. – Санкт-Петербург: Государственный Эрмитаж, – 2012. – с. 262.

[88] Отчет Императорской Археологической комиссии за 1898 г. / – Санкт-Петербург. 1901, – с.15-16, рис. 11; Гайдукевич, В. Ф. Илурат. Итоги археологических исследований 1948-1953 гг. / Гайдукевич, В. Ф., Книпович Т. Н. (ред.) Боспорские города II, (МИА № 85). – Москва–Ленинград: АН СССР, – 1958, – с.79, 81.

Altıncı paraqraf "**Macar siginlərinin Midiya mənşəyi və paleo-antropoloji göstəricilər**" adlanır. Bir çox faktlar siginlərin Cənubi Qafqazdan gəlmələrinə işarə edir. Strabon siginlərin adlarını derbik, tapir və kaspilərlə birgə qeyd edir. Herodot siginləri Midiyadan gəlmələr hesab edir.[89] Midiya Azərbaycan ərazisində və ondan cənubda yerləşirdi. Gil pintaderlərin üzərindəki təsvirlərin təhlili göstərir ki, onlar Yaxın Şərq mənşəlidir, buradan onlar Azərbaycana və daha sonra Şimali Qafqaza köç ediblər.

M.Parduts, Y.Xoxorovski və Y.Kişfaludinin tədqiqatları göstərdi ki, Böyük Macar düzündəki gil pintaderlərin çoxu qadın qəbirlərindən tapılır.[90] Bruyako hesab edir ki, bu qadınların bir hissəsi Qafqaz mənşəlidir.[91]

Yeddinci paraqraf "**Şimali və Cənubi Qafqazın gil pintaderlər tapılmış yaşayış yerlərinin dövrləşməsi və skiflərin miqrasiyası problemi**" adlanır. Sarıtəpədə yanğın izi ilə bölünmüş iki mədəni təbəqə var idi. Onların arasında xronoloji fasilə yoxdur. İçərisində uzadılmış skelet və sırğa tapılan sallama qəbir üzərindəki divarın qalıqlarına (ikinci təbəqəyə aid) əsaslanaraq təpənin üzərində yerləşən skiflərə aid edilən uzadılmış skelet olan iki qəbiri birinci mədəni təbəqəyə aid etmək lazımdır.[92] Müəllif belə nəticəyə gəlir ki, yaşayış yeri skiflər tərəfindən yandırılıb və bu təbəqədə iki sallama qəbirdə dəfn adəti icra olunub. Onlardan birinin üstündə ikinci mədəni təbəqədə izlənilən divar inşa olunmuşdur. Serjen-Yurt, Kiskaraant-Qora və Sarıtəpə yaşayış yerlərindəki dağıntıları skiflərlə bağlamaq lazımdır.

---

89 Страбон. География: в 17 книгах. Пер. Стратановского Г. А. / Страбон. – Ленинград: Наука, – 1964. – XI, 8, 8; Геродот… V, 9.

90 Párducz, M. Western Relations of the Scythian Age Culture of the Great Hungarian Plain. // Acta Antiqua Academiae Scientiarum Hungaricae, – 1965. Vol. XIII, – p.279; Chochorowski Jan. Die Vekerzug… S.83; Kisfaludi, Julia. Tonstempel und Knochenzylinder aus der Mittleren Eisenzeit im Karpatenbecken // – Budapest: Communicationes Archaeolgicae Hungariae, – 1997, – S.79.

91 Бруяко, И. В. Пинтадеры раннего железного века между Карпатами и Понтом. // Stratum Plus, – 2014. № 3, – с.45.

92 Nərimanov, İ. H. 1960-cı ildə Sarıtəpədə arxeoloji qazıntılar. // – Bakı: Tarix İnstitutunun Əsərləri, – 1963. XVI, – s.92, 97.

Dissertasiyanın dördüncü fəsli "**Qəbir avadanlığı və dəfn ayininin semantikası**" adlanır və 11 paraqrafdan ibarətdir. Birinci paraqraf "**Xaçşəkilli ornament**", ikinci paraqraf isə "**Buta ornamenti**" adlanır. Kimmer və skiflərin mədəniyyətlərində geniş yayılmış göbək (xaçşəkilli, rombşəkilli) ornamentinin tədqiqi göstərdi ki, bu, Sibir xalqlarının şamanizmində tez-tez təsvir olunan "dünyanın mərkəzi" konsepsiyası ilə bağlıdır. Kimmer və skiflərin qəbir abidələrində dördləçəkli (xaçvari) tunc pilək – rozetlər geniş yayılmışdır. Belə piləklər Mingəçevir kurqanlarından və Xocalının böyük torpaq kurqanlarından tapılmışdır. Türk dillərində "mərkəz" konsepsiyası *göbek, kipdĭk, kǎvapa* sözləri ilə bildirilir. Bu söz həmçinin üçbucaqlardan ibarət xaç şəklində təsvir olunmuş kompozisiyaların mərkəzi ornamentini bildirmək üçün istifadə olunur. Sibir və Mərkəzi Asiya skiflərinin qəbir abidələrində tez-tez vergül formalı daş qablar, tunc piləklər və üzərində bu ornament təsvir olunmuş konusvari sırğalar tapılır. Sibir xalqlarında bu ornament şimal dişi maralının izini bildirir. O dəqiqliklə onu təkrar edir. Azərbaycanda bu ornament buta adlanır. *Buta/but* sözü türk dillərində "ayaq", "baldır", "heyvanın arxa ayaqları" mənasını verir.[93]

Üçüncü paraqraf "**Daşkəsəndən tapılmış tunc kəmər: skiflərin dəfn mərasimi və intoksikasiya problemi**" adlanır. Hallüsinogen və psixotrop maddələr (enteogenlər) şamanizmin tərkib hissəsidir.[94] Altayda skiflərin ikinci Pazırık kurqanında, daimi don təbəqəsində arxeoloqlar yurta aşkar etmişdilər. Burada içərisində yarıya qədər kömürləşmiş çətənə toxumu tapılmış tiryəkxana vardır. Herodotun əsərində bu yurtalar və skiflərin közərmiş daşların üzərinə necə çətənə toxumlarını atmaları dəqiq təsvir olunur. Hallüsinasiya vəziyyətinə düşməyin digər bir yolu da toksinlərin "Amanita muscaria"dan (zə-

---

[93] Clauson, Sir Gerard. An etymological dictionary of pre-thirteenth-century Turkish / Sir Gerard Clauson. – London: Oxford University Press, – 1972. – p. 297.

[94] Hoffman, M., Ruck, C. A. P. Entheogens (Psychedelic Drugs) and Shamanism / Namba Walter Mariko, Neumann Fridman E. J. (eds.) Shamanism: An Encyclopedia of World Beliefs, Practices, and Culture. – Santa Barbara, Denver, Oxford: ABC-CLIO, – 2004, – p. 114-115.

hərli göbələk) istifadəsi ola bilər. Bu göbələklərin təsvirinə tez-tez arxeoloji materiallarda rast gəlinir.

Göbələk təsvirləri Daşkəsəndən tapılmış tunc kəmər üzərində də var. Onun üzərində başında şişuclu baş geyimi olan insan, xaçşəkilli ornament, göbələk şəklində ornament, cüt atlara qoşulmuş cəng arabası, əlində kompozitli yay olan insan, buynuzlu atlar təsvir olunmuşdur.[95] Buradan tapılmış qoç başlı qulpu olan daş qaba əsasən qəbir abidəsi e.ə. VIII-VII əsrlərə aid edilir. Bu cür tunc kəmərlər Tli nekropolunun 74 və 76 №-li qəbir abidələrindən tapılmışdır. V.A.İlyinskaya və A.İ.Terenojkin bu təsvirləri skiflərlə əlaqələndirirlər.[96] Tli və Daşkəsəndən tapılmış kəmərlərin üzərində eyni stilistik kompozisiyalar təsvir olunmuşdur – əllərində kompozitli yay olan insanlar, *göbək* ornamenti. Burada insanların başları quş başı formasında, yəni alın hissəsi verilməmiş, burun isə quş dimdiyi şəklindədir. Bir çox nişanələr Daşkəsəndən tapılan tunc kəmərin üzərindəki təsvirin skiflərin dəfn mərasimi olduğuna işarədir: 1) insan başının quş başı formasında təsvir olunması, başında şişuclu baş geyiminin olması və xalatın aşağı hissəsində quyruğun olması. Bu geyimin paralelləri Ukokda yerləşən Verx-Kalcin-2 nekropolundakı 3 №-li kurqanda rast gəlinir[97]; 2) başlarında buynuza bənzər bəzəkləri olan at təsvirləri. Bunların paralelləri Bereldə yerləşən 11 №-li skif kurqanında rast gəlinir[98]; 3) kəmərin üzərində dəfn arabası təsvir olunub; 4) və göbələklər (enteogenlər).

Dördüncü, beşinci, altıncı və yeddinci paraqraflarda "**Qaşıq, çömçə**", "**Qamçı**", alət "**Orba**", "**Başlıqlar**", həmçinin "**Zınqırovlar**" tədqiq olunur. Sibir və Mərkəzi Asiya şamanlarının şaman mərasimləri zamanı qamçı və qaşıq (qaval toxmaqının analoqu), zınqırovlu zoomorf başlıqlardan və zınqırovlardan istifadə etmələri misal

---

[95] Кесаманлы Г.П. Погребение с бронзовым… рис. 4.

[96] Ильинская В.А., Тереножкин А.И… с.75, 85.

[97] Полосьмак, Н. В. Всадники Укока / Н. В. Полосьмак. – Новосибирск: Инфолио, – 2001. – с.130, 180, реконструкция V.

[98] Samašev, Z. Die Fürstengräber von Berel / W. Menghin H. Parzinger (Hrsg.) Im Zeichen des Goldenen Greifen: Königs Gräber der Skythen. – Munich: Prestel, – 2007, – Abb.4.

olaraq göstərilir. Müəyyən olunmuşdur ki, bu əşyalar semantik cəhətdən bir-birləri ilə bağlıdırlar və Sibir şamanlarının ən qədim (arxaik) alətləridir.[99] Daha sonra bu əşyaların skif, sak, hun, eləcə də srubnaya və Xocalı-Gədəbəy mədəniyyətlərində müqəddəsliyi qeyd olunur.[100] Arxeoloji mədəniyyətlərdə bu əşyalar ilə Sibir şamanlarının dünyagörüşü arasında semantik əlaqə aydınlaşır.

Skif arxeologiyasında zınqırovlu zoomorf başlıqlar geniş yayılmışdır. "Nar" formasında olan zınqırovlar Xocalı-Gədəbəy mədəniyyətində, frak-kimmer materialları arasında, eləcə də e.ə. IX-VII əsrlərə aid Yunan və Makedoniya arxeologiyasında rast gəlinir. Y.Bouzekin fikrincə, bu tip əşyaları yunanlar kimmerlərdən mənimsəmişdir. O hesab edir ki, Cənubi Qafqazdan tapılan bu cür nümunələr ən qədim nümunələrdir. Y.Bouzek qeyd edir ki, Mərkəzi Avropada şamanizm kimmerlər və onların müttəfiqlərinin təsiri altında yayılmağa başlayır. Nəticədə, kimmerlərin şaman ayinləri zamanı istifadə etdikləri bəzi simvolik motivlər Avropanın bəzək motivləri arasında işlənməyə başlayır.[101]

---

[99] Бутанаев, В. Я. Традиционный шаманизм Хонгарая / В. Я. Бутанаев. – Абакан: Хакасский гос. Университет, – 2006. – с.102-103, рис. 11; Львова, Э. Л. Материалы к Изучению Истоков шаманизма / И. Н. Гемуев, Ю. С. Худяков (ред.) Этнография Народов Сибири. – Новосибирск: Наука, – 1984, – с.88-89; Eliade, Mircea. Shamanism: Archaic Techniques of Ecstasy / Mircea Eliade. – Princeton: Princeton University Press, – 1972. – p.165-167, 179.

[100] Kao Chu-hsun. The Ching Lu Shen Shrines of Han Sword Worship in Hsiung Nu Region. // Central Asiatic Journal, – 1960. Vol. V, No. 3, – p.223; Геродот… IV, 3-4; Отрощенко, В. В. Костяные детали плеток из погребений срубной культуры. // Советская археология, – 1986. №3, – с.230; Гасанов, З. Г. Иссыкская посвятительная надпись // – Москва: "Эпиграфика Востока", Институт востоковедения РАН, – 2015. Вып. 31, – с. 34-59.

[101] Bouzek, Jan. Caucasus, Luristan and Greek Geometric Bronzes. // Annales Archeologiques Arabes Syriennes, – 1971. Volume XXI, – pp. 89-94; Bouzek, Jan. Central Europe and Caucasus in the Early Iron Age / W. Blajer (ed.) Peregrinationes archaeologicae in Asia et Europa: Joanni Chochorowski dedicatae. – Krakow: Instytut Archeologii Uniwersytetu Jagiellońskiego, – 2012, – pp. 539-540.

"**40 günlük matəm**" adlı doqquzuncu paraqrafda Herodotun məlumatları ilə Cənubi Sibir skifləri və türklərində 40 günlük matəm "səyahəti" haqqında etnoqrafik mənbələrin müqayisəsi aparılır[102].

Onuncu paraqraf "**Tikinti materialları, qəbir abidəsinin planı və dəfn ayinləri**" adlanır. Bu paraqrafda məqsəd sibir şamanlarının dünyagörüşünə əsaslanaraq şamanizm simvolikasının kimmer və skiflərin qəbir abidələrində izlərini müəyyən etməkdir. Şamanların mərasim zamanı icra etdikləri ayinlər dəfndən sonra mərhum tərəfindən təkrar olunmalıdır. Dromosun vasitəsi ilə mərhum "dünyanın mərkəzi"nə keçməli idi. Burada at bağlanan ağac "Dünya ağacı"nı təcəssüm edir. Onun köməyi ilə mərhum yeraltı dünyaya yol alır. İçərisində süd olan qablar "Süd gölü"nü, kurqan özü isə "Dünya dağı"nı təcəssüm edir. Od isə bu səyahətdə mərhuma kömək edir.

On birinci paraqrafda "**Təbiət elmlərinin cəlb edilməsi**" problemi tədqiq olunur. Fosfat və mikrobioloji metodlara əsaslanan tədqiqatlar göstərdi ki, srubnaya və erkən sarmat kurqanlarında süd məhsulu olan saxsı qablar çox nadir rast gəlinir. Onlar yalnız son sarmat dövründə yayılmışdır.[103] Herodotun məlumatları və Altayın Pazırık mədəniyyətinin arxeoloji tapıntıları göstərir ki, süd məhsulları taxta və dəridən hazırlanmış qablarda saxlanılırdı.[104] Fosfat və mikrobioloji metodlar bu məmulatların izlərini aşkarlamağa imkan vermir. Bu misal göstərir ki, yanlış nəticələrdən qaçmaq üçün eyni zamanda müxtəlif elmlərin – təbiət və humanitar elmlərin materiallarını da tədqiqata cəlb etmək lazımdır.

---

[102] Геродот… IV, 73-75; Традиционное Мировоззрение Тюрков Южной Сибири: пространство и время, вещный мир / Э. Л. Львова, И. В. Октябрьская А. М. Сагалаев [и др.] – Новосибирск: Наука, – 1988. – с.74.

[103] Демкин, В. А., Демкина Т. С., Удальцов С. Н. Реконструкция погребальной пищи в глиняных сосудах из курганных захоронений с использованием фосфатного и микробиологических методов. // – Тюмень: Вестник археологии, антропологии и этнографии, – 2014. No 2, – с.155-157.

[104] Геродот… IV, 2; Руденко, С. И. Горноалтайские находки и скифы / С. И. Руденко. – Москва: АН СССР, – 1952. – с.48; Полосьмак Н.В… с.197-199, рис. 134б.

Dissertasiyanın beşinci fəsli "**Skif cəmiyyətinin etnik mənşəyi və sosial quruluşu problemi**" adlanır və səkkiz paraqrafdan ibarətdir. Birinci və ikinci paraqraflarda "**Skif mənşəyi ilə bağlı İran köklü fərziyyəsinin metodoloji nöqsanları**" və "**Skiflərin geneoloji əsatirlərində skif cəmiyyətinin sosial quruluşunun təzahürü**", eyni zamanda Herodotun qeyd etdiyi "Skiflərin Tarqıtaydan yaranması haqqında əsatir" də tədqiq olunur. İranşünasların əsərlərinin tənqidi təhlili aşağıdakıları müəyyən etməyə imkan verir: 1) əsatirdə qeyd olunan dörd skif tayfası (sosial kateqoriyaları bildirən) – avxat, katnar, trasp, paralat iran dil-əsatir ənənələrinə əsaslanaraq sistemli şəkildə yenidən bərpa oluna bilmədilər; 2) İranşünaslar[105] qeyd edirlər ki, cəm şəkilçisi olan *t* mənşəyini altay dil ailəsindən alır. Bu şəkilçiyə erkən skiflərin (avxat, paralat, skolotların) etnonimlərində rast gəlinir; 3) V.İ.Abayev qeyd edir ki, "skiflərin Tarqıtaydan yaranması haqqında əsatir"də erkən skiflərin Lipoksay, Kolaksay kimi adlarında, həmçinin erkən skiflərin paralat, skolot kimi etnonimlərində rast gəlinən *l* fonemi qədim iran dillərində yoxdur; 4) "Protogenin şərəfinə olan fərman"dan aydın olur ki, *aksay/oksay* erkən skiflərin adlarında İranşünas tədqiqatçıların hesab etdiyi kimi bütöv bir söz deyil, əksinə iki müstəqil kökdən ibarətdir – *ok/ak* və *say*. Bütün bu deyilənlərdən belə nəticə çıxarmaq olar ki, tədqiqatçıların fikrincə ən qədim skif cəmiyyətinin sosial quruluşunu özündə əks etdirən "Skiflərin Tarqıtaydan yaranması haqqında" əsatirinin iran aləminə heç bir aidiyyatı yoxdur; 5) Vs.Miller və V.İ.Abayev qeyd edirlər ki, Herodotun dövründə çar skiflərdə demək olar ki, heç bir iran elementi izlənilmir. Onların fikrincə, farslaşma prosesi bir qədər gec – sarmat dövrünə yaxın zamanlarda baş verir; 6) skiflərin və sakların irandilli olmalarını sübut etmək üçün farspərəst tədqiqatçılar "dairəvi mühakimə" metodundan (circular reasoning), yəni "nəticələrin əvvəlki fər-

---

[105] Миллер, В. Эпиграфические следы иранства на юге России. // Журнал министерства народного просвещения, – 1886. – с. 283. Тохтасьев, С. Р. Проблема скифского языка в современной науке / V. Cojocaru (ed.) Ethnic Contacts and Cultural Exchanges North and West of the Black Sea: from the Greek Colonization to the Ottoman Conquest. – Iasi: Trinitas, – 2005, – с. 78, прим. 107.

ziyyələrdən asılı olduğunu bildirən" metoddan istifadə edirlər. Belə yanaşma hind-avropaçıların özləri tərəfindən də tənqid olunur;[106] 7) Herodotun məlumatına əsasən, skif imperiyasında yeddi müxtəlif dil mövcud idi. Bütün bu deyilənlər skiflərin iran monoetnik mənşəyi haqqında konsepsiyanı inkar edir.[107]

Daha sonra, türk xalqlarının dünyagörüşü və dilləri əsasında "Skiflərin Tarqıtaydan yaranması haqqında" əsatirində skif cəmiyyətinin sosial quruluşu təcəssüm olunur. Bu əsatirdə erkən skiflərin, skif tayfalarının və göydən enmiş qızıl əşyaların adları çəkilir. Tədqiqatın nəticəsində bunlar aydın olmuşdur: 1) qızıl əşyaların adları və onların yerinə yetirdikləri funksiyalar erkən skiflərin və skif tayfalarının adlarında əks olunur; 2) erkən skiflərin və skif tayfalarının adları aldıqları səma cisminə müvafiq olaraq onlara həvalə olunmuş sosial və təsərrüfat funksiyalarını əks etdirir; 3) tayfaların adları səma atributunun hərəkətinin nəticəsini əks etdirir: *təbərzin (qılınc) – kəs (yar)*, *xış – şumla*, *boyunduruq – işğal et (zəbt et)*, *qazan– as (odun üzərindən);* 4) "Skiflərin Tarqıtaydan yaranması haqqında" əsatiri ən qədim skif dövründə mövcud olan skif cəmiyyətinin sosial quruluşunu əks etdirir; 5) cəm şəkilçisi – *t (-ut), ğut* qədim türk dillərində hərbçi və zadəganları bildirir. Eyni vəziyyət, bizə məlum olan beş əsatir etnonimindən (avxat, katyar, trasp, aparalat, skolot) "hərbçi" və "çar" statusuna malik üçündə də (avxat, paralat, skolot) cəm şəkilçisi – *hat /- at/ - -ot* olması ilə müşahidə olunur. Əkinçilik və kahinliklə məşğul olan katiar və trasplarda isə bu şəkilçi yoxdur.

Üçüncü paraqraf "**Çar skif panteonunun tanrıları türk dilləri əsasında**" adlanır. İranşünas tədqiqatçılar çar skiflərinin bütün səkkiz tanrı adlarının etimologiyasını verə bilmir: 1) türk dilləri və Sibir xalqlarının şamanizmi əsasında aparılan tədqiqat nəticəsində bütün

---

[106] Marcantonio, Angela. Evidence that most Indo-European Lexical Reconstractions are Artefacts of the Linguistic Method of Analysis / Angela Marcantonio (ed.). The Indo-European Language Family: Questions about its Status. – Washington: Journal of Indo-European Studies, – 2009, – pp. 1-46.

[107] Haszanov, Zaur. Методологические ошибки иранской версии происхождения скифов (на венгерском яз.). // // – Budapest: Eleink – Magyar őstörténet (In memoriam Harmatta János), – 2010. XVII, No 1, – 68-81.

səkkiz tanrı adının etimologiyasını və bu panteonun quruluşunu aydınlaşdırmaq mümkündür; 2) qədim türk dilləri əsasında aparılan tədqiqat skif teonimlərinin polisemantikliyini və onların obrazlarının çoxfunksiyalı olduğunu aşkarlamağa imkan verir. Herodot bunu hətta yunan tanrı obrazlarının çoxfunksiyalı quruluşuna bənzədir; 3) skif ənənəsində də türk xalqlarında olduğu kimi ilk yaradıcı qadın hesab olunur. Skif ənənəsində türk xalqlarında olduğu kimi tanrı panteonunda qohumluq titulaturası var.[108]

Dörd, beş və altıncı paraqraflarda "**Saka, skif, aşquz/işquz etnonimləri**", "**Arxeoloji və yazılı mənbələrin müqayisəsi kontekstində skiflərin və qədim oğuzların mənşəyi və miqrasiyasının eyniləşdirilməsi**" və "**Oğuzların sosial, coğrafi və hərbi bölgüsü**" tədqiq olunur: 1) Qədim yunan transkripsiyasında skif etnonimi (Σκυθαι) *skuthai (skuz/skuth)* kimi oxunmalıdır; 2) skif tayfa birliyinin adı türk tayfa birliklərinin *oğuz, quz* adına uyğun gəlir[109]; 3) Qədim türk mənbələrində *siğ/soq/soğ* sözləri "maral, sayqak, cüyür, ceyran, inək" bildirir, *sağ* sözü isə "sağmaq, sağım, sağmal heyvan" deməkdir.[110] "Sağıcı" (*sağ*) sözü skif etnonimlərindən biridir[111]; 4) Herodotun çar skifləri haqqında məlumatının Rəşid-əd-Dinin qədim oğuzlar haqqında məlumatı ilə müqayisəsi belə nəticə çıxarmağa imkan verir ki, onların miqrasiyası, hərbi yürüşlərinin detalları və bu hadisələrin baş verməsi dövrü eynidir; 5) qədim skif dövrünə aid arxeoloji abidələr Rəşid-əd-Dinin qədim oğuzların miqrasiya coğrafiyası haqqın-

[108] Гасанов Заур Царские...; Гасанов, З. Г. Социально-культурные ценности скифов: древних ашгузов/ишкузов/гузов / З. Г. Гасанов. Астана: Тюркская академия, – 2013; Hasanov, Zaur. Suffix -t as an Indicator of Plurality in the Ethnonyms of the Royal Scythians / Emiroğlu Ö., Godzinska M., Majkowski F. Discusions in Turkology. – Warsaw: Department of Turkish Studies and Inner Asian Peoples, University of Warsaw, – 2014, – pp. 646-655.
[109] См.: Hasanov, Zaur. "İskit" etnoniminin okunuşu. // – İstanbul: Tarih Dergisi, İstanbul Üniversitesi Edebiyat Fakültesi, – 2010. Sa. 50, 2009/2, – s. 1-10.
[110] Древнетюркский Словарь / Наделяев, В. М. и др. (ред.) – Ленинград: Наука, – 1969. – с.480, 507.
[111] Homer. The Iliad: [in II vol.] / Homer. Trans. Murray A. T. – Cambridge: Harvard University Press, – Books 13-24. Volume II, – 1999. – XIII, 4-8.

da verdiyi məlumatları təsdiqləyir[112]; 6) Rəşid-əd-Din, Əbu-l-Qazi, Mahmud Qaşqarlının əsərlərinin və "Dədə Qorqud" dastanının müqayisəli təhlili göstərdi ki, oğuzlar üç müxtəlif amilə görə iki hissəyə ayrılırdılar: sosial amil – *Bozok* və *Uçok*, hərbi – *sağ kol* və *sol kol* və coğrafi amil – *İç oğuz* və *Taş oğuz*. Oğuzların İç oğuz (daxili oğuzlar) və Taş oğuz/Aş oğuz (xarici oğuzlar) bölgüsünün assur-babil yazılı mənbələrində birbaşa paralelləri var. Belə ki, burada skiflər işquzay və aşquzay adları altında keçirlər. Türk əsası skif cəmiyyətinin sosial, hərbi və coğrafi təşkilini müəyyən etməyə imkan verir.

Yeddinci paraqraf "**Assur-babil mənbələrində skif çarlarının adları**" adlanır. Məlum olmuşdur ki, İşpakay adı *uc bägi* – "sərhədçi bəy" və *iç buyruqı beg* – "daxili işlər üzrə bəy" kimi qədim türk titulları arasında paralellərini tapır.[113] Şamaş tanrısına ünvanlanmış "məktubda" Partatua (Bartatua) çarının[114] adında olan *-tatua* hissəsi türk sözü *dede*-yə uyğun gəlir. Oğuzlarda bu, "müqəddəs insanları" bildirən bir söz kimi işlənir.[115] Buradan aydın olur ki, Bartatua "paralatların patriarxı"-dır. Onun oğlu Madinin adını Herodot qeyd edir. Taxt varislərində tez-tez oxşar adlar olur. Midiyalı Arbakın varisinin adı Maudak idi.[116] Hun hökmdarı Toumanın varisinin adı Mode idi.[117] Qərb hunlarının hökmdarı Xsiu Çunun oğlu varis şahzadənin

---

[112] Гасанов, Заур. Идентификация версии происхождения и миграции «царских скифов» Геродота с «Огуз-наме» Рашид ад-Дина: и их сопоставление с археологическими памятниками ранних скифов // – Bakı: AMEA Tarix İnstitutu, elmi əsərlər, – 2011. Cild 36-37, – с. 30-43.

[113] Кононов, А. Н. Родословная туркмен. Сочинения Абу-л-Гази хана хивинского / А. Н. Кононов. – Москва–Ленинград: АН СССР, – 1958. – с.90-91, прим. 85; Наделяев В.М… с. 201.

[114] Queries to the Sungod: Divination and Politics in Sargonid Assyria / State Archives of Assyria: [in 21 vol.] Starr, I. (ed.). – Helsinki: Helsinki University Press, – 1990, vol. IV. –No.20, 21.

[115] Clauson Sir Gerard… p.451-452.

[116] Diodorus Siculus… II, 32, 6.

[117] Sima Qian. Shi ji: 110. The Account of the Xiongnu / Records of the Grand Historian: Han Dynasty II. By Sima Qian. – Hong Kong & New York: Columbia University Press, – 1993, – p.134.

adı Miti idi[118]. Altay dillər ailəsinin lüğətində monqol sözü *-*med* var ki, o da "ən", "böyük" mənası verir. *Aqa-mad* "ən böyük (qardaş)" deməkdir. Protoaltay rekonstruksiyası *mét'ò-dur*[119].

"**İssık kurqanından tapılan run yazısı**" adlı səkkizinci paraqrafda Orxon-Yenisey, Talas və qədim Yaxın Şərq işarələrinin fonetikasına əsasən İssık kurqanından tapılan run yazısının oxunuşu təklif olunur. Həmin yazının oxunması onu göstərir ki, mətnin sözləri türk mənşəlidir, qrammatikası isə daha erkən dövrlərə aiddir. Mətnin tərcüməsi: *"Dünyanın dörd bir yanının ("bucağının") tayfaları Sınqlını tərənnüm edir. Üç yüz yas tutan and içir".* Bir sıra qrammatik (şəkilçilərin tam formalaşmaması, *anta* sözünün yazılışının protoforması), tarixi (Herodot, Xan Şu) və ədəbi (yeddi misralı mürəkkəb şeir – *ır*) faktlar yazının düzgün oxunuşunu təsdiqləyir.[120]

Dissertasiyanın altıncı fəsli "**Skif dövlət qurumlarının lokalizasiyası və dövrləşməsi**" adlanır və iki paraqrafdan ibarətdir. "**Qəbir abidələrinin və arxeoloji materialların dövrləşməsi**" adlı birinci paraqrafda arxeoloji komplekslər iki xronoloji dövrə bölünür. Birinci dövr e.ə. VIII əsrin sonundan (ikinci yarısından) başlayır və e.ə. VI əsrin əvvəllərində sona çatır. Dissertasiyada birinci dövrə aid dəfn adəti təhlil olunur, dissertasiyaya əlavədə isə bu dövrə aid komplekslərdən tapılmış materialların cədvəli verilir. İkinci xronoloji dövr e.ə. VI əsrin ikinci və ya üçüncü rübündən başlayır və e.ə. IV-III əsrlərədək davam edir. Dissertasiyada ikinci dövrün dəfn adəti təhlil olunur, dissertasiyaya əlavədə isə bu dövrə aid komplekslərdən tapılmış materialların cədvəli verilir.

"**Aşquz və Sakasena ölkələrinin lokalizasiyası və xronologiyası**" adlı ikinci paraqrafın əvvəlində "**tədqiqatçıların Skif çarlığının Qafqaz silsiləsindən cənubda yerləşməsi haqqında olan fikirləri**" göstərilir. Qeyd olunur ki, bir sıra tədqiqatçılar Skif çarlığının Azər-

[118] Courtier and Commoner in Ancient China, Selections from the History of the Former Han by Pan Ku / Trans. Burton Watson. – New York & London: Columbia University Press, – 1974. – p.151-152.
[119] Starostin, S. A. An Etymological Dictionary of Altaic Languages / S. A. Starostin, A. V. Dybo, O. A. Mudrak. – Leiden and Boston: Brill, – 2003. – p.916-917.
[120] Гасанов З.Г. Иссыкская… с. 34-59.

baycan Respublikası və Cənubi Azərbaycan (İranın Şərqi və Qərbi Azərbaycan ostanları) ərazisində yerləşdiyini hesab edir.[121] Tədqiqatçıların digər qrupu isə buna qarşıdır.[122] Bu problemin həlli üçün müraciət olunan C.A.Xəlilovun və M.N.Poqrebovanın əsərlərinin təhlili göstərir ki, bu tədqiqatlarda dəfn adətlərinə ya ümumiyyətlə, fikir verilmir, yaxud da çox səthi təhlil olunur. Onların əsərləri skif triadası elementlərinin mövcudluğuna və yaxud da yoxluğuna həsr olunub. Daha sonra "**tədqiqatçıların kimmerlərin və skiflərin miqrasiyası haqqında fikirləri**" təhlil olunur.[123]Qeyd olunur ki, S.M.Qaşqayın skif mədəniyyətinə aid əşyaların Şərqi Azərbaycanda skiflərin güman edilən işğalı dövründən daha gec dövrə təsadüf etməsi haqqında fikri[124] arxeoloji materiallarla sübut olunmur.

Daha sonra burada "**Skif tipli əşyaların etnik mənşəyi problemi**" təhlil olunur. Y.Bouzek hesab edir ki, arxeoloji cəhətdən kimmer və skif mədəniyyətlərini ayırmaq çox çətindir. Arqument olaraq o, nə Yunan, nə də Etrusk incəsənətində nəbati və həndəsi üslublar arasında kəskin sərhədlərin olmamasını, eyni zamanda üslub dəyişmələrinin etnosun dəyişməsinə aidiyyatının olmamasını göstərir.[125] Skiflər-

---

[121] Дьяконов И.М… с.251-253; Хазанов, А.М. Социальная история скифов / А.М. Хазанов – Москва: Наука, – 1975. – с.219; Бабаев, И. А. Юго-восточный Кавказ в Мидийско-ахеменидское время // Труды международной конференции "Место и роль Кавказской Албании в истории Азербайджана и Кавказа". – Баку. – 2012. – с.77; Ильинская В.А., Тереножкин А.И… с.24; Алексеев, А. Ю. Хронография с.102-103.

[122] Халилов Дж.А…; Погребова, М. Н. Памятники скифской культуры в Закавказье / Б. А. Литвинский (ред.) Кавказ и Средняя Азия в древности и средневековье. – Москва: Наука, – 1981, – с. 56.

[123] См.: Крупнов, Е. И. О походах скифов через Кавказ / Д. Б. Шелов (ред.) Вопросы скифо-сарматской археологии. – Москва: Изд. АН СССР, – 1954, – с.192-194.

[124] Кашкай, С. М. О скифских походах через Кавказ на Ближний Восток / S. M. Qaşqay (red.). İ. Əliyevin 80 illiyinə həsr olunmuş Elmi konfransın materialları: – Bakı, 12 Mart, 2004, – Bakı: Elm, 2004, – c.44.

[125] Bouzek, Jan. Cimmerians and Early Scythians. The transition from Geometric to Orientalising Style in the Pontic Area / G. R. Tsetskhladze (ed.) North Pontic Archaeology: Recent Discoveries and Studies, Colloquia Pontica 6. – Leiden: Brill, – 2001, – p.42; Bouzek, Jan. Cimmerians and Scythians in Anatolia / Cengiz Isık,

lə əlaqəyə girən kimmerlər onların oxlarından istifadə edə bilərdi, lakin bu tapıntıların əksəriyyəti skiflərə aid olunmalıdır. İ.N.Medvedskayaya görə, Midiyalılar və Əhəmənilər skif oxlarını mənimsəmişlər. Lakin hələ e.ə. III əsrə qədər Əhəmənilər onların ən qədim nümunələrindən istifadə edirdilər.[126] Mingəçevirdə isə əksinə olaraq 100 və 122 №-li[127] torpaq qəbirlərin timsalında bir tip ox ucluqlarının digəri ilə əvəz olunmasını aydın izləmək mümkündür.

Daha sonra bu paraqrafda "**Aşquz ölkəsinin lokalizasiyası və onun mövcudluğu dövrü**" problemi tədqiq olunur. Sırf skif qəbir abidələrinin izlərinin varlığı və Skif çarlığının Cənubi Qafqazda yerləşməsini sübut edir.

Avrasiyanın skif qəbir abidələrindən tapılmış insan qalıqları üzərində yaxın zamanlarda dünyanın aparıcı genetikləri tərəfindən aparılmış DNT analizləri göstərdi ki: 1) iki (genetik) skif qrupu vardı – şərqi və qərbi; 2) onların arasında $F_{ST}$ əmsalı çox aşağıdır ki, bu da onların genetik əlaqəsini göstərir; 3) Şərq skif qrupunun birbaşa genetik varisləri istisnasız olaraq türk xalqları hesab olunur ki, buraya xüsusən də qıpçaqlar aid edilir; 4) qərb skif qrupunun birbaşa genetik varisləri isə azərbaycanlılar, şərqi İran farsları, İranın şərqi və qərbi Azərbaycan ostanlarında yaşayan türklər, abazinlər, mordvalar, ruslar və başqaları hesab olunur. Bununla belə, qərb skif qrupundan və onların sələfləri olan srubnaya tayfalarından[128] birbaşa genetik törəmənin ən yüksək faizi (95 %-dən çox) siyahıda adları birinci çəkilən azərbaycanlılara aiddir. Bu faktlar skif qurumlarının eyni vaxtda müxtəlif ərazilərdə mövcud olduğunu sübut edir. Genetik göstəricilər

---

Zeynep Cizmeli (ed.) Calbis, Baki Ogün'e Armagan. – Ankara: Türk Tarih Kurumu, – 2007, – p.31-32.

[126] Медведская, И. Н. Металлические наконечники стрел Переднего Востока и Евразийских степей II – первой половины I тысячелетия до н.э. // СА, – 1980. №4, – с.37.

[127] Ox ucları (24 ədəd, sümükdən. Eyni inventar nömrəsi altında tunc ox ucları), Mingəçevir… AF. 13219. 1947; 1947; Журнал №2 находок… Inv. №1641; Inv. №1912.

[128] Данные генетики подтверждают мои выводы о миграции срубных племен на Южный Кавказ в XIV в. до н.э. см.: Гасанов З.Г. Киммерийцы…

skif imperiyasının polietnik tərkibli olmasını sübut edir. Məqalənin müəllifləri qeyd edirlər ki, əvvəllər belə hesab olunurdu ki, türk dilləri yalnız VI əsrdən sonra yayılmağa başlayır, özü də bu proses ancaq kübar təbəqənin vasitəsi ilə həyata keçirdi.[129] Əldə olunmuş nəticələr bu konsepsiyanı yenidən nəzərdən keçirməyə əsas verir.

Aşquz ölkəsinin yaranmasını e.ə. 676-cı ildə İşpakayın Assuriya mənbələrində adının çəkilməsi ilə bağlamaq olar. Hərçənd ki, Aşquz bundan öncə yaranmalı idi. Aşquz ölkəsinin süqutunu isə təxminən e.ə. 595/94-cü illərə aid etmək olar. Erkən skif dövrünün başlanğıcında Aşquz ölkəsinə demək olar ki, bütün Cənubi Qafqaz ərazisi daxil idi, onun sərhədləri cənubda isə Urmiya gölünə qədər çatırdı. E.ə. VII əsrin sonunda onun sərhədləri Antakiyaya (Karkemiş) qədər uzanır. Genetik tədqiqatlar göstərir ki, Skif dövləti həmçinin Şimali Qafqazda da mövcud idi. Bu iki müxtəlif qrupun mövcudluğu kimmerlərin timsalında da müşahidə olunur – Qafqaz silsiləsindən şimalda[130] və ondan cənubda. Burada birinci qrup Anadolu ərazisində, ikinci qrup isə Cənubi Qafqazda, Manna və Midiyada yerləşir[131].

Daha sonra bu paraqrafda "**Sakasena ölkəsinin lokalizasiyası və onun mövcudluğu dövrü**" tədqiq olunur. Herodot yazır ki, ortokoribantilər (şişpapaqlı saklar) midiyalılarla birgə Dara imperiyasının onuncu satraplığına daxil idilər. Tədqiqatçılar bu bölgənin Azərbaycan olduğunu hesab edirlər.[132] Strabon isə skif və sak anlayışlarını bir-birindən ayırır, lakin təəssüf ki, onun əsərində Herodotda sak termini ilə bağlı gördüyümüz dəqiqlik yoxdur. Strabona görə, Sakasena

---

[129]Unterländer Martina… p. 8, supplementary fig. 10.

[130] См.: Махортых, С. В. Культура та історія кіммерійців Північного Причорномор'я: / автореферат диссертации на соискание ученой степени кандидата исторических наук) / – Киев, 2008. – 33 с.

[131] Иванчик, А. И. Киммерийцы. Древневосточные цивилизации и степные кочевники в VIII-VII веках до н.э. / А. И. Иванчик. – Москва: б.и., – 1996. – с.98-99; Гасанов З.Г. Киммерийцы…

[132] Геродот… с.152, прим. переводчика 7; Алиев, И. О скифах и скифском царстве в Азербайджане. // – Москва: Переднеазиатский сборник, История и филология стран древнего Востока, – 1979. Вып. III, – с. 10.

Ermənistan ərazisində yerləşir.[133] Plini isə sakasenləri Ermənistanda yox, onun sərhədlərində – albanlarla birgə yerləşdirir.[134] Arrian bu məlumatı təsdiqləyir. Qavqamela döyüşü zamanı Dara ordusunun düzülüş qaydasını təsvir edərkən o, iki dəfə sakasinlərin adlarını albanlarla birgə çəkir. Arrian ermənilərin adını isə onlardan ayrı, kappadokiyalıların yanında qeyd edir.[135] Strabon yazır ki, farslar saklar ölkəsində olan zaman gecə vaxtı onlara hücum edib tayfalarını qırmışdılar. Strabonun burada hansı sak ölkəsi haqqında yazdığı məlum deyil. Lakin, o, bu ölkə haqqında sakların Kappadokiyada mövcud olmalarını qeyd edəndən dərhal sonra bəhs edir.

Cənubi Qafqazda *sak* kökünü daşıyan toponimlər var. Bu, Böyük Qafqazın ətəklərində yerləşən Şəki (Şəki rayonu) toponimidir. Şəki toponimi Azərbaycanın digər bölgələrində də müşahidə olunur. Şəki toponimi müasir Ermənistan ərazisində yerləşən Sisiyan rayonunun yaxınlığında da qeydə alınmışdır.[136]

Azərbaycanın Şəki şəhəri yaxınlığında son vaxtlarda tapılan skif arxeoloji abidələri bu toponimin skif-saklarla əlaqəsini təsdiqləmişdir. Sakasenanın sərhədlərini müəyyən edərkən nəzərə almaq lazımdır ki, Aral mənşəli skif-sak tayfaları hələ e.ə. VIII əsrin sonu e.ə. – VII əsrin əvvəllərində burada yaşamışdır. Yazılı mənbələrin və toponimlərin tədqiqi göstərir ki, Aşquz ölkəsinin süqutundan sonra Saka adlı bir neçə ölkə var idi. Onlardan biri müasir Azərbaycan, Ermənistan və Şərqi Gürcüstan ərazisində, ikincisi isə Anadoluda yerləşirdi.

**"Nəticədə"** yekun nəticələr verilir. Dissertasiya işində skifşünaslığın iki əsas məsələsinin həlli məqsəd qoyulmuşdur: 1) skif dövlət qurumlarının Qafqaz silsiləsindən cənubda yerləşməsi məsələsi; 2) skiflərin etnik mənşəyi problemi.

---

[133] Геродот… VII, 64; Страбон… XI, 8, 4.

[134] Plyni. Natural History: [in X vol.] / Plyni. Trans. by Rackham H. – Cambridge: Harvard University Press, Books III-VII, Volume II, – 1942. – VI, 28-30.

[135] Арриан. Поход Александра. Пер. с латинского М. Е. Сергеенко / Арриан. – Москва: Миф, – 1993 – III, 8,4, 11,4-7.

[136]Алиев И… с. 11, прим. 41.

Skiflər haqqında ən erkən Assuriya yazılı mənbələri e.ə. 670-ci illərə aiddir. Skif çarı Partatuanın Assuriya hökmdarı Asarhaddondan qızını ona ərə verməк tələbindən sonra skiflərin adı demək olar ki, assur-babil mənbələrində bir daha hallanmır. Qədim yunan mənbələrinin tədqiqi və onların "Nabupalasarın xronikası" ilə müqayisəsi skiflərin Asiyadakı hegemonluqlarına səbəb olan növbəti hadisələrin ardıcıl xronologiyasını müəyyən etməkdə kömək oldu. E.ə. 625/24-cü illərdə Kiaksar Midiya hökmdarı olur. E.ə. 623/22-ci illərdə skiflər Madinin başçılığı altında Midiyaya hücum edir və ona qalib gəlirlər. Daha sonra isə bütün Yaxın Şərqi işğal edirlər. E.ə. 612-ci ildə Umman-manda (yəni burada skiflər) İriba-Tuktenin (Arbak) başçılığı altında Nineviyanı işğal edirlər. E.ə. 595/94-cü illərdə Kiaksar skifləri içirib qırdıqdan sonra, onlar geriyə Qara dəniz sahillərinə qayıdırlar. Bundan sonra burada ortokoribantilər–saklar-tiqraxaudalar meydana gəlir.

Dəfn adəti əlamətlərinin, skif tipli əşyaların müqayisəli təhlili Azərbaycanda bir sıra skif və sak arxeoloji abidələrinin üzə çıxmasına yardım etmişdir. Aydın oldu ki, skif ox uclarının istehsalında skiflərə xas olan və əksinə Əhəməni komplekslərinə zidd modernləşmə prosesləri müşahidə olunur. Azərbaycandan tapılmış müxtəlif skif tipli məmulatların tədqiqi göstərdi ki, bu əşyaların bir neçə çeşidi var, lakin onlar çox az və ya tək sayda aşkar olunurlar. Bu Azərbaycanın erkən dəmir dövrünə aid abidələrin yetərincə öyrənilməməsi ilə izah oluna bilər.

Skif tipli tapıntılar, eləcə də dağıntı və yanğın izləri gil pintaderlər tapılan yaşayış yerlərində qeydə alınmışdır. Radiokarbon analizi bu yaşayış yerlərinin dağılmasını e.ə. VIII əsrin sonu – e.ə. VII əsrin əvvəlinə aid olduğunu göstərdi. Bu dağıntılardan sonra gil pintaderlərə şimal-qərbi Qara dənizdə və Karpat hövzəsində rast gəlinir. Onların burada meydana gəlməsini tədqiqatçılar Herodotun məlumatına əsasən özlərini midiyalıların varisləri hesab edən skif-sigin tayfasının miqrasiyası ilə əlaqələndirirlər. Bu faktlar Cənubi Qafqaz əhalisinin bir hissəsinin Macar düzünə miqrasiyasını göstərir.

Qədim yunan mənbələri skif cəmiyyətinin polietnik tərkibinə işarə edir. İranşünaslar bütün skifləri irandilli hesab etməklə yanlış

tədqiqat metoduna müraciət ediblər. Dissertasiyada qeyd olunmuşdur ki, iki skif tayfası – çar skifləri və saklar-tiqraxaudalar (ortokoribantilər) türk mənşəlidir. Hər iki tayfanın Azərbaycanda olması yazılı mənbələrlə sübut olunur. Aparıcı genetiklərin son tədqiqatları müəllifin skif imperiyasının polietnik tərkibli olması və onların bir hissəsinin türk xalqlarına aid olması haqqında fikrini təsdiqləyir. Skiflərin Asiyadan miqrasiyası haqqında məlumata oğuzların "Oğuznamə" dastanında rast gəlinir. Arxeoloji materiallar "Oğuznamə"dəki miqrasiya marşrutunu təsdiqləyir. Herodotun əsərində skiflər *S-kuth-ai – Kuth* kimi qeyd olunur.

Yazılı mənbələrin, arxeoloji, linqivistik, etnoqrafik materialların müqayisəli təhlili göstərir ki, kimmerlərin və skiflərin dünyagörüşü və şaman təcrübəsi sibir şamanları ilə eynidir.

Skiflərin Azərbaycanda mövcudluğunu iki xronoloji dövrə ayırmaq olar. Birinci dövrün əvvəllərində bura Aral gölü ətrafından insan qrupları gəlmişdir. Daha sonra Herodotun təsvir etdiyi kimi, Şimali Qara dənizdən skiflərin miqrasiyası başlayır. Birinci xronoloji dövr e.ə. VIII əsrin sonundan (və ya ikinci yarısından) başlayır və e.ə. VI əsrin əvvəllərində bitir. İkinci dövr isə çar skiflərinin Cənubi Qafqazı və Yaxın Şərqi tərk etmələrindən sonra başlayır. Bu hadisə e.ə. IV-III əsrlərdə başa çatır. Birinci xronoloji dövr Aşquz ölkəsi və onun sələfi – Qamir ölkəsi ilə bağlıdır. İkinci dövr isə Sakasena və sonralar Albaniya ilə bağlıdır.

**Dissertasiyanın əsas məzmunu aşağıdakı elmi əsərlərdə dərc olunub**:


1. Царские скифы: этноязыковая идентификация «царских скифов» и древних огузов / – New York: Liberty Publishing House, – 2002, – 486 с.
2. Çar skiflər: Çar skiflərin və qədim oğuzların etno-dil eyniləşdirilməsi / – Bakı: Əbilov, Zeynalov, – 2005. – 480 s.
3. Çar İskitler: İskitler ve eski Oğuzların etno-dil özdeşleştirmesi / – İstanbul: Türk Dünyası Araştırmaları Vakfı, – 2009, – 422 s.
4. Elements of shamanism in Cimmerian and Scythian archaeology / D. R. Yesner et al (ed.) "Traditional belief and healing systems in a

changing world: An interdisciplinary approach", Abstracts, International Society for Shamanistic Research. 9th International Conference, – Anchorage: University of Alaska Anchorage, – 2009. – p. 35.
5. İskitlerin ve Hunların (Hsiung-nu) dininde kutsal kılıç kültü. // – İstanbul: Türk Dünyası Araştırmaları, – 2009, Sayı 181, – s. 171-180.
6. "İskit" etnoniminin okunuşu. // – İstanbul: Tarih Dergisi, İstanbul Üniversitesi Edebiyat Fakültesi, – 2010. Sa. 50, 2009/2, – s. 1-10.
7. Módszertani hibák a szkíták eredetének iráni verziójában. Методологические ошибки иранской версии происхождения скифов (на венгерском яз.). // // – Budapest: Eleink – Magyar őstörténet (In memoriam Harmatta János), – 2010. XVII, No 1, – 68-81.
8. Чтение этнонима «скиф» // – Пятигорск: Научные проблемы гуманитарных исследований. Научно-теоретический журнал, – 2010. Вып. 1, – с. 38-42.
9. Идентификация версии происхождения и миграции «царских скифов» Геродота с «Огуз-наме» Рашид ад-Дина: и их сопоставление с археологическими памятниками ранних скифов // – Bakı: AMEA Tarix İnstitutu, elmi əsərlər, – 2011. Cild 36-37, – с. 30-43.
10. Крестообразный орнамент как маркер «центра мира» в шаманизме киммерийцев и скифов // «Тюркологическое искусствознание: проблемы и перспективы», тезисы международной научной конференции. – Баку, – 2011. – с. 8-11.
11. Крестообразный орнамент как маркер «центра мира» в шаманизме киммерийцев и скифов. // – Bakı: İncəsənət və mədəniyyət problemləri, – 2011, №3, – с. 22-37.
12. A Reflection Of The Cimmerian And Scythian Religious Rites In Archaeology. // 8th International Congress on the Archaeology of the Ancient Near East. Abstracts. – Warsaw: University of Warsaw – April 30 – May 4, – 2012. – p. 139.
13. Погребальный обряд как основа выявления собственно скифских курганов Азербайджана / W. Blajer (ред.).

Peregrinationes archaeologicae in Asia et Europa: Joanni Chochorowski dedicatae. – Krakow: Instytut Archeologii Uniwersytetu Jagiellońskiego, Profil-Archeo, – 2012, – с. 519-527.

14. К проблеме этнического происхождения гидронимов с основой “don/ton”. // Астана: Алтаистика и тюркология. Тюркская Академия, – 2012, № 2 (6), – с. 67-81.
15. Suffix -t as an Indicator of Plurality in the Ethnonyms of the Royal Scythians // II International Symposium of Turkology, – University of Warsaw, – 12-14 September, – 2012,– pp. 49-50.
16. Происхождение и значение топонима «NAGIU» в переписке ассириского царя Саргона II // Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi: Beynəlxalq elmi konfrans. 21-25 iyul 2011-ci il. Naxçıvan, – 2012. – с. 371-380.
17. Социально-культурные ценности скифов: древних ашгузов/ишкузов/гузов / Астана: Тюркская академия, Prosper Print, – 2013. – 392 с.
18. Shamanism in the archaeology of nomadic peoples of Eurasia in the Late Bronze and Early Iron Ages // 19th Annual Meeting of the European Association of Archaeologists, – Pilsen, Czech Republic, University of Bohemia, – 4-8 September, – 2013, – p. 25.
19. К проблеме лингвистического, социального и мировоззренческого состава скифской империи // Сборник докладов. Экспертный круглый стол посвященный истории кочевых цивилизаций в Приднепровье (скифы), – Днепропетровск: – 15 марта, – 2013, – с. 6-13.
20. К проблеме этнического происхождения имен киммерийских царей и этнотопонима «киммер/гамир» / Ибраев Ш. и др. (ред.) Turkology. – Астана: Тюркская академия, – 2013, – с. 530-551.
21. Треугольные серьги скифских погребений Мингечаура и их связь с конусовидными серьгами кургана Аржан 2 // “Azərbaycan arxeologiya və etnoqrafiya elmləri müstəqillik illərində”. Beyn. konf. material. – Bakı: AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu, – 2013. – с. 147.
22. A Reflection of the Cimmerian and Scythian Religious Rites in Archaeology / P. Bieliński et al. (ed.) Proceedings of the 8th

International Congress on the Archaeology of the Ancient Near East: [in 3 vol.] – Wiesbaden: Harrassowitz Verlag, – vol. 3, – 2014, – pp. 527-539.

23. Argimpasa – Scythian goddess, patroness of shamans: a comparison of historical, archaeological, linguistic and ethnographic data / E. E. Djaltchinova-Malec (ed.) Art and Shamanhood. Bibliotheca Shamanistica, vol. XV. – Budapest: Akademiai Kiado, – 2014, – pp. 73-93.
24. Suffix -t as an Indicator of Plurality in the Ethnonyms of the Royal Scythians / Emiroğlu Ö., Godzinska M., Majkowski F. Discusions in Turkology. – Warsaw: Department of Turkish Studies and Inner Asian Peoples, University of Warsaw, – 2014, – pp. 646-655.
25. Происхождение имени и изобразительного образа скифской Афродиты Урании // – Bakı: İncəsənət və mədəniyyət problemləri, – 2014. №1 (47), – с. 104-125.
26. On the origin and Morphological Structure of the Scythian –ok-sai / Godzinska M. et al. (ed.) Remarks on Turkish Studies. – Warsaw: Faculty of Oriental Studies, University of Warsaw, – 2015, – pp. 268-274.
27. Intoxication and Hallucination Practices in the Ancient World // International Conference Sacred Landscapes and Conflict Transformation. History, Space, Place and Power in Shamanism. International Society for Academic Research on Shamanism. Panteio University of Social and Political Science, National and Kapodistrian University of Athens, Hellenic National Commission for UNESCO, – Delphi: October 9th-13th, – 2015, – p. 57.
28. Иссыкская посвятительная надпись // – Москва: "Эпиграфика Востока", Институт востоковедения РАН, – 2015. Вып. 31, – с. 34-59.
29. A Method for Determining the Practice of Shamanism in Archeological Cultures. // – Routledge, Taylor & Francis: Anthropology & Archeology of Eurasia, – 2016. 55: nos, 3-4, – pp. 188-231, DOI: 10.1080/10611959.2016.1317554.

30. İskitlere ve Türk-Moğol halklarına ait aynı gelenekler, kültler ve psikolojik özellikler. // – Ankara: Belleten, Türk Tarih Kurumu, – 2016. Sa. 288, – s. 639-661.
31. Серьги в виде кольца с несходящимися концами и треугольными подвесками из Мингечаура. // – Bakı: Azərbaycan arxeologiyası və etnoqrafiyası, – 2016. №1, – с. 44-54.
32. Some Problems of Shamanism in the Cimmerian and Scythian Cultures. / Baku: "OL" NPKT, A collection of Research Papers. – 2016. – 112 p.
33. "Koroğlu" dastanındakı mehtərin kor edilməsi və onun oğlunun üsyan qaldırması süjetlərinin tarixi mənbələri. // – Bakı: Tarix və onun problemləri, – 2017. №2, – s. 380-386.
34. Табити – Верховная богиня скифов. // – Bakı: Azərbaycan AMEA Tarix İnstitutu, elmi əsərlər, – 2017. cild 63, – с. 94-103.
35. Этнонимы и топонимы с основой сака. // – Bakı: AMEA Tarix İnstitutu, elmi əsərlər, – 2017. Cild 67, – с. 129-141.
36. Сюжет античного мифа о первом скифском царе в эпическом наследии тюркских народов. // – Bakı: Sivilizasiya. Baki Avrasiya Universiteti, – 2017, (33), cild 6, №1, – с. 70-77.
37. Отражение скифских погребальных обрядов в средневековом степном памятнике в долине Улаан-хэрэм в Монголии. // – Bakı: Sivilizasiya. Bakı Avrasiya Universiteti, – 2017, (34), cild 6, №2, – с. 82-93.
38. Shamanism in the Archaeology of Nomadic Peoples of Eurasia in the Late Bronze and Early Iron Ages / Gheorghiu Dragoş, Pásztor Emilia et al. (eds.) Archaeological Approaches to Shamanism: Mind-Body, Nature, and Culture. – Newcastle: Cambridge Scholars, – 2017, – pp. 228-242.
39. Гидронимы Танаис и Борисфен. // – Bakı: Pedaqoji Universitetin Xəbərləri, – 2017, cild 65, №2, – с. 223-233.
40. Архаические наконечники стрел скифского типа в восточной части Кавказа: проблема миграции скифов. // Санкт-Петербург Кишинев Одесса Бухарест: Stratum Plus, – 2017. №3, – с. 17-50.

41. Удила и псалии раннего железного века, найденные в Азербайджане. // – Киев: Археологiя (НАН України, Iнститут Археологiї), – 2017. № 3. – с. 105-119.
42. Traces of Shamanism and the Scythian Mythology in the Koroglu Epic / Mátéffy Attila, Szabados György (eds.) Shamanhood and Mythology. Archaic Techniques of Ecstasy and Current Techniques of Research. In Honour of Mihály Hoppál, celebrating his 75 th Birthday. – Budapest: Hungarian Society for Religious Studies, – 2017. – p. 185-201.
43. Anthropomorphic Images on the Bronze Belts from the Caucasus in the Early Iron Age // 24-th Annual Meeting of the European Association of Archaeologists. Abstract Book, vol. I. – Barcelona: – September 5-8, – 2018. – p. 154.
44. The Cult of Female Warriors and Rulers in the Scythian and Sarmatian Cultures. // – Alba Iulia: Annales Universitatis Apulensis, Series Historica (Gligor Mihai, and Soficaru Andrei (eds.) Archaeology of Women: Mortuary Practices and Bioarchaeological Reconstruction), 2018. 22/I, – pp. 131-150.
45. The Prehistory of Knowledge Exchange Between the Caucasus, the Black Sea Region and Central Europe: First Millennium BC / Gutmeyr Dominik, Kaser Karl (eds.) Europe and the Black Sea Region: A History of Early Knowledge Exchange. Studies on South East Europe, vol. 22. – Vienna: LIT, – 2018. – pp. 51-79.
46. Two Different Funerary Rituals in the Kurgans of the Eastern Part of the South Caucasus in the Early Iron Age // Nicola Laneri, Giulio Palumbi, Sylvie Müller Celka (eds.) Constructing Kurgans: Burial Mounds And Funerary Customs In The Caucasus And Eastern Anatolia During The Bronze And Iron Age. SANEM Series No. 4. – Rome: Arbor Sapientiae Editore, – 2019, – pp. 125-138.
47. Бронзовые зеркала с зооморфными ручками из коллекции Национального музея истории Азербайджана / Cabbarov F.R. (red.) Tarix və mədəniyyət. Faktlar və dəyərlər. Akademik N. Vəlixanlının yubileyinə həsr olunmuş məqalələr toplusu. – Bakı: Nurlar, – 2020. – s. 415-425.
48. Olbian Style Bronze Mirrors with Zoomorphic Handles from Mingachevir. / Manolis Manoledakis (ed.) "Peoples in the Black Sea,

from Prehistory to the Roman period", Proceedings of the 3rd International Workshop on the Black Sea in Antiquity. – Oxford: Archaeopress Archaeology, – 2021. – pp. 13-22.
49. Работа "Азербайджано-Казахстанской международной археологической экспедиции" в 2019-2022 гг. // – Cultural Heritage. Science Journal. National Museum of Kazakhstan, Astana, 2022. №4 (99), – s. 49-54.

Dissertasiyanın müdafiəsi 23 iyun 2023-cü il tarixində saat 10^00-da Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.30 saylı Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Az.1 143, Bakı şəhəri, H.Cavid prospekti, 115

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası AA.Bakıxanov adına Tarix İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat elektron versiyaları ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 19 may 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 15.05.2023

Kağızın formatı: 60x84 $^{1}/_{16}$

Həcm: 94,885

Tiraj: 30